QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 140 (5860) **3 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Uğurlu sosial inkişaf strategiyası

*Prezident İlham Əliyev: "Altı ayda Azərbaycan iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub"*



Səh 3

5

"Yeni Azərbaycan Partiyası ötən dövr ərzində ekoloji mahiyyət kəsb edən bir çox layihələr həyata keçirib"



10

ABŞ Ermənistandan üz çevirir



12

"KÖSTƏBƏK YOUTU-BERLƏR"İN BAXIŞ VƏ "LİKE" PROBLEMİ...



# "Azərbaycanla Oman Sultanlığı arasında ikitərəfli münasibətlər yaxşı səviyyədədir"

*Prezident İlham Əliyev Omanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasim Məhəmməd Salim Al Salhinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Qasim Məhəmməd Salim Al Salhi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu, siyasi əlaqələrin məmnunluq doğurduğunu bildirərək təmasların daha da fəallaşdırılmasının və əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev biznes dairələri arasında əlaqələrin qurulmasının önəmini vurğuladı.

Səfir Qasim Məhəmməd Salim Al Salhi, ilk növbədə, Oman Sultanı Qabus bin Said Al Saidin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edərək səfir kimi fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Oman Sultanı Qabus bin Said Al Saidin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Oman Sultanına çatdırmağı xahiş etdi. Söhbət zamanı təhsil sahəsində əməkdaşlıq, o cümlədən universitetlərarası əlaqələr məsələlərinə də toxunuldu.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2007-ci il 11 aprel tarixli 562 nömrəli Fərmanının ləğvi haqqında Fərman imzalayıb.

# Prezident İlham Əliyev Laosun Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sivienqpxet Pxetvorasakın etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir Sivienqpxet Pxetvorasak etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı əlaqələrimizin daha da genişləndirilməsi və əməkdaşlıq üçün konkret sahələrin müəyyənləşdirilməsinin önəmini vurğuladı. Müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev bu səfərlər zamanı əlaqələrimizin daha da inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını dedi.

Səfir Sivienqpxet Pxetvorasak Laos rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı. Sivienqpxet Pxetvorasak əlaqələrimizin inkişafına Azərbaycan tərəfinin verdiyi dəstəyi Laos hökuməti və xalqının yüksək qiymətləndirdiklərini dedi. Sivienqpxet Pxetvorasak öz növbəsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına töhfə verdiyini qeyd etdi. Səfir ikitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini dedi və yaxşı ənənələrə əsaslanan əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əmin olduğunu bildirdi.

Dövlətimizin başçısı Laos rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos rəhbərliyinə çatdırmağı xahiş etdi. Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət, humanitar, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Uğurlu sosial inkişaf strategiyası

## *Prezident İlham Əliyev: “Altı ayda Azərbaycan iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub”*



***Əvvəlki illərdə olduğu kimi, 2019-cu il də uğurlu və mühüm hadisələrlə əlamətdar oldu. İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə də dövlət başçısı bu ilin əvvəlində qarşıya qoyulan vəzifələrin icra edildiyini, ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin həyata keçirildiyini və ümumi iqtisadi vəziyyətin çox müsbət olduğunu bildirib. Dövlət başçısı bu ilin altı ayında iqtisadiyyatın, qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının artdığını vurğulayıb.***

### İqtisadiyyatın yüksələn göstəriciləri

Dövlət başçısı iqtisadiyyatın yüksələn göstəricilərini açıqlayaraq bildirib ki, ən sevindirici göstərici qeyri-neft sənayesindədir: “İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, “SOCAR-Polymer” zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır.”

Ölkə başçısı kənd təsərrüfatının inkişafını, eləcə də, ticarət dövriyyəsinin artdığını vurğulayaraq, bu sferalarda da yüksək göstəricilərin əldə edildiyini bildirib: “Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə, bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar və kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək.

Ticarət dövriyyəmiz də kifayət qədər artıb - 20 faizdən çox. Qeyri-neft ixracımız 15 faiz artmışdır. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Bu da, yaxşı göstəricidir, əhalinin gəlirləri 6,6 faiz artmışdır. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artmışdır, yəni plandan əlavə yığılmışdır və bu da, aparılan islahatların təzahürüdür.”

### Önəmli addımlar, uğurlu nəticələr...

Dövlət başçısı, həmçinin, bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafına həsr olunan dördüncü Dövlət Proqramının qəbul olunduğunu, həm elektrik enerjisi, həm qazlaşdırma, həm də içməli su sahələrində gözəl nəticələrin əldə edildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev yol infrastrultu-ru ilə bağlı görülən işlərdən danışaraq, büdcə daxilolmalarının, eyni zamanda, valyuta ehtiyatlarının artdığını, manatın məzənnəsinin sabit qaldığını da qeyd edib.

Dövlət başçısı vurğulayıb ki, bu, müsbət haldır: “Bu, inşaat materialları sektoruna da müsbət təsir göstərir, iş yerlərinin açılması üçün şərait yaradır. Onu da bildirməliyəm ki, ilin əvvəlindən 60 min yeni iş yeri açılmışdır. Onların bir hissəsi dövlət sektorunda açılmışdır. Biz bunu, ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun. Ona görə ödənişli ictimai iş yerlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb və təxminən, 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıbdır. Yəni bu, bizim sosial sahədə gördüyümüz işlərdir. Buna görə bu iş yerləri açılır ki, vətəndaşlar işlə təmin olunsunlar. Ancaq hamımız yaxşı bilməliyik ki, özəl sektor iş yerlərinin yaradılmasına öz töhfəsini daha böyük həcmdə verməlidir. Özəl sektorun nümayəndələri ilə aparılan işlər nəticəsində, biz bu sahədə də artım görürük. İqtisadi canlanma, əlbəttə ki, iş yerlərinin yaradılmasına da gətirib çıxarır. Çünki bu, daimi proses olmalıdır”.

### “Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etmişik. Bu, bizim böyük sərvətimizdir”

Dövlət başçısı getdikcə əhalinin artığını deyərək bildirib ki, bu, böyük sərvətimizdir: “Bizim əhalimiz artır. Müstəqillik dövründə əhalimiz təxminən 3 milyon nəfər artıb. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etmişik. Bu, bizim böyük sərvətimizdir, amma digər tərəfdən, onu deməyə əsas verir ki, biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq. Sosial infrastrukturun yaradılması ilə məşğul olmalıyıq, nəqliyyat sahəsində əlavə tədbirlər görülməlidir ki, artan əhali, vətəndaşlar özlərini rahat hiss etsinlər, işlə təmin olunsunlar. Bir daha demək istəyirəm ki, bu, daimi prosesdir. Çünki Azərbaycanın uğurlu inkişafı, sənaye sahəsində, iqtisadi sahədə inkişaf əhalinin artımına, bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq”.

### “Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

Dövlət başçısı cari ilin əvvəlindən çox böyük sosial islahatlar aparıldığını qeyd edərək, bildirib ki, bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir: “Bildiyiniz kimi, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən, 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da, çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin, demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən, 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Bir sözlə, bütün iqtisadi göstəricilər, onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik”.

Bütün bunlar, məhz İlham Əliyev Cənablarının, hər zaman olduğu kimi, sözü ilə əməlinin tam üst-üstə düşməsinin reallığıdır. Və ölkə Parezidenti İlham Əliyev Cənablarının dediyi kimi: “Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər”.

**RƏFİQƏ KAMALQIZI**

# Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağı tikilir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Naxçıvan Beynəlxalq Hava Limanı üçün yeni uçuş-enmə zolağının inşası artan yük və sərnişin tələbatının ödənilməsinə, eləcə də muxtar respublikada mülki aviasiya sahəsində işlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən bildirilib ki, avqustun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağında görülən işlərlə maraqlanıblar.

Məlumat verilib ki, uçuş-enmə zolağının uzunluğu 3300, eni isə 60 metrdir. Ümumi sahəsi 250 kvadratmetr olan zolaqda əsas tikinti işləri başa çatdırılıb, uçuş və enmə zonasında maneələr aradan qaldırılıb. Zolağın alt qatı mərhələli şəkildə bərkidilib, mühəndis-kommunikasiya xətləri, eləcə də yağış və qrunt sularının axıdılması üçün drenaj və kollektorlar çəkilib, asfalt örtük salınıb. Tikinti işləri iqlim şəraiti və beynəlxalq tələblər nəzərə alınmaqla aparılır, keyfiyyətli tikinti materiallarından istifadə olunur.

Uçuş-enmə zolağının naviqasiya və işıqlandırma sistemləri də tam müasir tələblər səviyyəsində olacaqdır. Gecə uçuşlarının həyata keçirilməsi üçün uçuş zolağı hər iki istiqamətdə işıq-siqnal avadanlıqları ilə təmin olunacaqdır. Tikinti işləri aparılarkən ərazidə peyk siqnallarını tənzimləyən yerüstü naviqasiya sistemləri, çətin hava şəraitində təyyarələrin təhlükəsiz qəbulu və uçuşu üçün avtomatlaşdırılmış metroloji radiolokator quraşdırılıb, radiorabitə vasitələri yenilənib. Bu da yerli və beynəlxalq dəhlizlər üzrə hava şəraiti haqqında məlumatların operativ və dəqiq ötürülməsinə imkan verəcəkdir. Uçuş-enmə zolağında enişə yaxınlaşma sistemlərinin quraşdırılması hesabına dumanlı hava şəraitində qərarın qəbul edilməsi hündürlüyü 30 metrdən 400 metrədək olacaqdır. Yaradılan şərait hava limanının tam fasiləsiz fəaliyyət göstərməsinə, ən əsası isə geniştutumlu istənilən hava gəmilərinin qəbuluna imkan verəcəkdir.

Ali Məclisin Sədri uçuş-enmə zolağının inşasında əməyi olanlara təşəkkürünü bildirib, keyfiyyətin bundan sonra da diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

# "Ətraf mühitin mühafizəsində gənc nəslin rolu" mövzusunda yay məktəbinin bağlanış mərasimi keçirilib







Avqustun 2-də Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Ətraf mühitin mühafizəsində gənc nəslin rolu" mövzusunda yay məktəbinin bağlanış mərasimi keçirilib.

Tədbirdə çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. M.Babayev bildirib ki, ətraf mühitin qorunması dövlət siyasətinin prioritetlərindən biridir və Prezident İlham Əliyev bu məsələni xüsusi diqqət mərkəzində saxlayır: "Dövlətimizin başçısı İlham Əliyev tərəfindən verilən tapşırıqlar bu sahədə ciddi addımların atılmasını bir tələb kimi qarşıya qoyur. Görülən tədbirlər, eyni zamanda, maarifləndirici xarakter daşıyır. Ekologiyanın qorunması, ətraf mühitin mühafizəsi hər kəsin vətəndaşlıq borcudur".

M.Babayevin fikrincə, birgə səylərin göstərilməsi, ictimai dəstək qarşıya qoyulan məqsədlərin uğurla reallaşmasına böyük stimul verir. Dünyanın əsas qlobal çağırışlarından olan ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi kimi məsələlərin həllinə birgə dəstəyimiz əsasında töhfələr vermək faydalıdır. Yeni Azərbaycan Partiyasının böyük potensiala sahib olduğunu deyən nazir qeyd edib ki, müxtəlif ekoloji layihələrin həyata keçirilməsində partiyanın potensialından istifadə olunması yüksək nəticələr verir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə fəaliyyət planı böyük əhəmiyyət kəsb edir. M.Babayev "Ətraf mühitin mühafizəsində gənc nəslin rolu" mövzusunda yay məktəbinin əhəmiyyətini vurğulayaraq gənclərin bu sahədə bilik və təcrübələrini artırdığına inandığını söyləyib. Onun sözlərinə görə, layihə çərçivəsində gənclərə müxtəlif mövzularda təlimlər keçirilib, nazirliyin fəaliyyəti ilə yaxından tanış olublar.

YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası ötən dövr ərzində ekoloji mahiyyət kəsb edən layihələr həyata keçirib. Partiya tərəfindən hər il ağacəkmə aksiyalarının keçirildiyini deyən S.Novruzovun sözlərinə görə, ölkəmizdə yaşıllıqların salınması prosesində YAP üzvləri fəal şəkildə iştirak ediblər.

Siyavuş Novruzov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının ekoloji mahiyyət kəsb edən layihələrinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər zaman dəstək verir. "Biz bu istiqamətdəki layihələrimizi birgə əməkdaşlıq şəraitində həyata keçirmişik", - deyən YAP İcra katibinin müavini buna nümunə olaraq partiya tərəfindən "700 min ağac əkək" layihəsini xatırladıb. Onun sözlərinə görə, bu layihə çərçivəsində Bakı şəhərində böyük yaşıllaşdırma işləri həyata keçirildi. Eyni zamanda, YAP-ın yerli strukturları bölgələrdə ağacəkmə aksiyaları reallaşdırıblar. S.Novruzov deyib ki, partiya tərəfindən yaşıllaşdırma aksiyaları təkcə Bakını deyil, bütün bölgələri əhatə edir.

"Ətraf mühitin mühafizəsində gənc nəslin rolu" yay məktəbinin əhəmiyyətindən danışan S.Novruzov gələcək layihələr haqqında da fikirlərini bildirib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini, YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev isə bildirib ki, növbəti birgə tədbir avqustun 9-da keçiriləcək. Belə ki, həmin gün Buzovna çimərliyində iməcilik təşkil olunacaq. Tədbirdə çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev də "Ətraf mühitin mühafizəsində gənc nəslin rolu" yay məktəbinin əhəmiyyətindən bəhs edib. Sonda yay məktəbinin iştirakçıları mükafatlandırılıb.

# Azərbaycan təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirdi

*Dövlət başçısının sərəncamları ilə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının yüksək səviyyədə təşkili və keçirilməsində fəal iştirak etmiş şəxslər fəxri adlara layiq görülüblər*

***Bu gün beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi məkana çevrilən Azərbaycan mədəniyyətlərarası dialoqa töhfələrini verir. Bu, Azərbaycan mədəniyyət diplomatiyasının təntənəsidir. Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi, dinindən, irqindən asılı olmayaraq, saysız insanların Azərbaycana səfəri bu diyarın sivilizasiyaların qovuşuğunda yerləşdiyinə əsaslanır.***




Beynəlxalq səviyyəli tədbirlərin burada keçirilməsi dünya dövlətləri tərəfindən ölkəmizə ayrılan rəğbətin də göstəricisidir. Müxtəlif məzmunlu tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi ölkəmiz üçün fərəhləndirici məqamdır. Ölkəmizin durmadan artan beynəlxalq nüfuzu və mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsinə dəlalət edir. Bütün bunlar Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini dünya ictimaiyyətinə təqdim edir.




Müasir dünyanı narahat edən məsələlər də ölkəmizdə müzakirə olunur. Dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından keçirilən tədbirlərdə ölkələrin təmsilçiləri və fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin etmək kimi böyük bir missiya həyata keçirilir. Qütbləşən dünyada əhatəli və sülhsevər cəmiyyətlərin necə qurulması yolları müzakirə edilir. Təbii ki, hər məsələnin mərkəzində insan amili dayanır və bəşəriyyətdə olan insanların rifahın yüksək olması vacib məsələlərdəndir.

**AZƏRBAYCAN ÜÇÜN MÜHÜM ƏHƏMİYYƏTƏ MALİK QƏRARIN QƏBUL OLUNMASI ÖLKƏMİZİN UNESKO İLƏ TƏRƏFDAŞLIQ MÜNASİBƏTLƏRİNİN YÜKSƏK SƏVİYYƏDƏ İNKİŞAF ETDİYİNİ GÖSTƏRİR**

Bu günlərdə paytaxtımızda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası da Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək vermiş oldu. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına ev sahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Məlumdur ki, Prezident İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq Sərəncam imzalamışdır. Bununla da, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olundu. UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası zamanı Bakıda 45 qərar qəbul edildi və 29 irs nümunəsi siyahıya salındı. Qəbul edilən qərarlar dünya mədəni irsinin qorunmasına, gələcək nəsillərə çatdırılmasına töhfə verəcək. Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyasının UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi xalqımızın beynəlxalq aləmdə daha bir mədəni və siyasi qələbəsi, eyni zamanda, dünya mədəniyyətinə verdiyi xüsusi töhfənin beynəlxalq miqyasda növbəti təsdiqi oldu.

Azərbaycan dəfələrlə olduğu kimi, bu dünya miqyaslı tədbirə də ən yüksək səviyyəli təşkilatçılıqla ev sahibliyi etdi. UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında yürüdülən uğurlu xarici siyasətin, Birinci vitse-prezident və UNESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın dəstəyi və qayğısı nəticəsində bu təşkilatla tərəfdaşlığın yüksək səviyyədə inkişafının göstəricisi kimi çox yüksək qiymətləndirilir. Bu kimi tədbirlərin ölkəmizdə keçirilməsi dünya ictimaiyyətində Azərbaycana olan etibarın və inamın parlaq nümunəsidir. Bakıda keçirilən sessiyaya ölkəmiz yüksək səviyyədə ev sahibliyi etdi və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirdi.

Dövlət başçısı UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda təşkili və keçirilməsində fəal iştirak etmiş şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 2019-cu il 30 iyun-10 iyul tarixlərində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakı şəhərində yüksək səviyyədə təşkili və keçirilməsində, həmçinin Şəki şəhərinin tarixi mərkəzi ilə birgə Şəki Xan Sarayının Dünya İrs Siyahısına salınmasında fəal iştirak etmiş şəxslər "Vətənə xidmətə görə" ordeni, "Tərəqqi" medalı "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif ediliblər.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Siyavuş Novruzov: "Yeni Azərbaycan Partiyası ötən dövr ərzində ekoloji mahiyyət kəsb edən bir çox layihələr həyata keçirib"



"Yeni Azərbaycan Partiyası ötən dövr ərzində ekoloji mahiyyət kəsb edən bir çox layihələr həyata keçirib". Bu fikri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bu gün Yeni Azərbaycan Partiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Ətraf mühitin mühafizəsində gənc nəslin rolu" mövzusunda yay məktəbinin bağlanış mərasimində deyib.

YAP tərəfindən hər il ağacəkmə aksiyalarının keçirildiyini deyən S.Novruzovun sözlərinə görə, ölkəmizdə yaşıllıqların salınması prosesində YAP üzvləri fəal şəkildə iştirak ediblər. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının ekoloji mahiyyət kəsb edən layihələrinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər zaman dəstək verir. "Biz bu istiqamətdəki layihələrimizi birgə əməkdaşlıq şəraitində həyata keçirmişik", - deyən YAP İcra katibinin müavini buna nümunə olaraq partiya tərəfindən "700 min ağac əkək" layihəsini xatırladıb. Onun sözlərinə görə, bu layihə çərçivəsində Bakı şəhərində böyük yaşıllaşdırma işləri həyata keçirildi. Eyni zamanda, YAP-ın yerli strukturları bölgələrdə ağacəkmə aksiyaları reallaşdırıblar. S.Novruzov deyib ki, partiya tərəfindən yaşıllaşdırma aksiyaları təkcə Bakını deyil, bütün bölgələri əhatə edir.

## Sərhəd Qoşunlarının Komandanı hərbi qulluqçuya baş çəkib





İyulin 31-də Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatının qarşısının alınması zamanı yaralanan hərbi qulluqçu üzərində avqust ayının 1-də aparılan cərrahiyyə əməliyyatı uğurla başa çatıb. Bu barədə SİA-ya Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib.

Qeyd edilir ki, hazırda onun vəziyyəti qənaətbəxşdir. Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı general-leytenant Əsgər Xəlilov hərbi qulluqçuya baş çəkib, cərrahiyyə əməliyyatından sonrakı vəziyyəti ilə yaxından tanış olub. General-leytenant Ə.Xəlilov hərbi hospitalda hərbi qulluqçunun valideynləri ilə görüşüb, övladlarını dövlətə sədaqət, vətənpərvərlik və düşmənə nifrət ruhunda tərbiyə etdiklərinə görə Dövlət Sərhəd Xidmətinin rəhbərliyi adından təşəkkürünü bildirib, oğullarının tezliklə sağalması üçün bütün lazımi tədbirlərin görüləcəyinə onları əmin edib.

***Rusiya ilə Çin arasında əlaqələrin inkişafda olduğu haqqında fikirlər çoxdan səslənir. İki böyük dövlətin qlobal miqyasda geosiyasi qüvvələr nisbətini dəyişə biləcək imkanlara malik olduqları sirr deyil. Si Szinpinin Rusiyaya son səfərinə də məhz bu kontekstdə nəzər saldıqda, maraqlı qənaətlər əldə etmək olar. Vladimir Putin və Si Szinpin müzakirələrdən sonra keçirdikləri mətbuat konfransında ifadə etdikləri fikirləri ilə bu nəticəni təsdiq ediblər. Onlar, faktiki olaraq, dünyada yeni böyük alyansın meydana gələ biləcəyinin işarələrini veriblər. Rusiyanın liderlik etdiyi Avrasiya İqtisadi İttifaqı ilə Çinin "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq layihəsi arasında qarşılıqlı əlaqələrin yaradılması və gücləndirilməsi müddəasının da nəzərə alınması çox maraqlı təsir bağışlayır. Digər razılıqları da diqqətə alanda, Rusiya-Çin münasibətlərinin yeni səviyyəyə yüksəlməsinin bütövlükdə qlobal geosiyasətdə qüvvələr nisbətini dəyişə biləcəyi proqnozunu verməyə imkan yaranır. Bu məqam üzərində daha geniş dayanmağa ehtiyac duyuruq.***

# Rusiya-Çin strateji əməkdaşlığı: "yeni sosialist alyansı"?




## Yeni dönəm: Moskva və Pekindən önəmli mesajlar

Çinin dövlət başçısının Rusiyaya səfərini Avropada İkinci dünya müharibəsi zamanı Normandiyaya qoşun çıxarılması ilə bağlı təşkil edilən təntənəli tədbirlər belə kölgədə qoya bilmədi. Həmin tədbirlərdə V.Putin və S.Szinpin iştirak etməyiblər. Ancaq Moskvadakı danışıqlarda müzakirə olunan məsələlərin beynəlxalq aləmdə ciddi əks-səda yaratması qlobal miqyasda əhəmiyyətli geosiyasi proseslərin vüsət ala biləcəyi üzərində düşünməyə əsas verir. Qərbin siyasi və ekspert dairələri də Rusiya və Çinin dövlət başçılarının görüşünə məhz bu aspektdə yanaşırlar. Maraqlıdır ki, Avropada dünya miqyasında yeni qüvvələr nisbətinin yarana biləcəyindən bəhs edirlər.

V.Putin və S.Szinpin müzakirələrdən sonra verdikləri bəyanatlarda maraqlı məqamlardan bəhs ediblər. Belə qənaət əldə edilir ki, bu iki böyük dövlət daha sıx və əhatəli əməkdaşlıq xəttini seçirlər. Onlar siyasi, geosiyasi, iqtisadi, enerji, maliyyə, hərbi-müdafiə, informasiya və s. istiqamətlərdə strateji xarakterli əlaqələri inkişaf etdirmək əzmində olduqlarını bəyan ediblər. Bu tezisi V.Putin və S.Szinpin ifadə ediblər.

Ekspertlər hesab edirlər ki, Rusiya və Çin dövlət başçılarının bu cür mövqe tutmalarının səbəbləri mövcuddur. Onlar, faktiki olaraq, keçən əsrin 70-80-ci illərində olan hadisələrin təkrar olunmaması üçün addımlar atırlar. O zaman Amerika diplomatiyası Moskva ilə Pekinin arasını vura bilmişdi və bundan Vaşinqton maksimum istifadə edə bildi. Belə görünür ki, Rusiya və Çin bu hadisədən nəticə çıxarıblar. V.Putin və S.Szinpinin bəyanatlarının məzmunu bu tezisi təsdiq edir.

Rusiya dövlət başçısının fikirlərinə görə, RF və ÇXR bütün istiqamətlərdə strateji əməkdaşlıq xəttini seçiblər. Bu seçimin ABŞ və Avropanın bir sıra dövlətlərinin hər iki ölkəyə qarşı atdıqları addımlara təpki olduğunu da gizlətmirlər. Məsələnin bu tərəfi qlobal geosiyasət kontekstində çox maraqlıdır. Belə çıxır ki, dünyada "soyuq müharibə"yə hazırlaşan iki böyük geosiyasi düşərgə yaranır. Bunun fonunda beynəlxalq təşkilatların öz funksiyalarını necə yerinə yetirə biləcəkləri məsələsi daha da aktuallaşır. Çünki böyük qarşıdurma reallaşarsa, onda həlledici geosiyasi problemlərin beynəlxalq hüquq çərçivəsində həlli ciddi çətinliklərlə üzləşə bilər.

Vurğulanan aspektdə Rusiya və Çinin qəbul etdiyi sənədlərdə hansı istiqamətlərdə Qərbə təpkilərin hazırlandığı, əlbəttə ki, maraq doğurur. Onların sırasında Rusiya və ÇXR-in təhlükəsizliyinin, suverenliyinin və ərazi bütövlüyünün birgə təmin edilməsi bəndi var. Məsələnin bu cür qoyuluşu narahatedicidir. Çünki bu o deməkdir ki, hətta Rusiya və Çin təhlükəsizlik və ərazi bütövlüyü üçün təhdid görürlər. Bu, çox güman ki, terrorun hər iki ölkə ərazisinə yayılması ehtimalı ilə bağlıdır. Eyni zamanda, Moskva və Pekin özlərinə qarşı kibersavaşın, informasiya müharibəsinin, iqtisadi sanksiyaların və müxtəlif xarakterli təxribatların hazırlandığına əmindirlər.

Məsələn, son günlər Rusiya KİV-lərində ABŞ-ın elektrik enerjisi sektorunu sıradan çıxarmaqla bağlı konkret planlar hazırladığı barədə məlumatlar yayılır. Onları Rusiya xüsusi xidmət orqanlarındakı mənbələr də təsdiq edirlər. Təbii ki, bu kimi hadisələrin başvermə ehtimalı mövcuddursa, onda ona qarşı hansısa tədbirlərin görülməsi də gözlənilədir. Rusiya və Çinin bu istiqamətdə koordinasiyalı hərəkət etmək barədə ortaq mövqeyə gəlmələri söhbətin yeni səviyyədə və miqyasda birgə təpkidən getdiyini göstərir.

## Alternativ düşərgə: reallaşma imkanları yüksəkdirmi?

Bunun fonunda iqtisadi sistemlərin inkişafında birgə praktiki addımların atılması, proqramların yaradılması, milli strategiyaların dərin inteqrasiyası və uzlaşdırılması, onların koordinasiyasının gücləndirilməsi məsələsinin qoyuluşu da son dərəcə önəmli görünür. Aydın olur ki, Rusiya və Çin iqtisadi sferada onlara qarşı atılan addımlara sıx birlik və koordinasiyalı davranmaqla uzun müddəti əhatə edən bir dönəm üçün cavab hazırlamaqdadırlar. Təbii ki, Qərbin iqtisadi sisteminin çox güclü olması qarşısında bu cür yaxınlaşma normal hal sayılır. Lakin ona nə dərəcədə nail ola biləcəklər? Demək çətindir. Burada başlıca problem kimi dünya nizamı məsələsi meydana çıxır.

Rusiya və Çin dövlət başçılarının razılaşdıqları sənəddə vurğulanır ki, həmfikir dövlətlərlə birgə dünya nizamının müdafiəsi məqsədi ilə səylərin birləşdirilməsinə nail olmaq lazımdır. Yəni Rusiya və Çin artıq dünya nizamının pozulmaqda olduğuna əmindirlər. Bunun müxtəlif aspektlərinin olduğu məlumdur. Məsələn, bir ölkənin ərazisindən digərinə qarşı fəaliyyət üçün istifadə etməyə çalışırlar. Şübhəsiz ki, Moskva bu kontekstdə Ukrayna faktorunu da nəzərdə tutur. İran məsələsinin də ona aidiyyəti olduğunu anlamaq çətin deyildir. Digər məsələ hərbi sahədə əməkdaşlığın dərinləşməsi ilə bağlıdır. Moskva və Pekin bu sferada əməli addımlar atmaqda qərarlıdırlar. Onlar hərbi strukturların birgə proqramlar həyata keçirməsi, o cümlədən informasiya təhlükəsizliyi sferasında ortaq fəaliyyətin təşkili üzərində dayanıblar.

Sənəddə milli valyutalardan istifadə məsələsinin xüsusi vurğulanması ekspertlərdə maraq doğurub. Hər iki ölkə getdikcə daha böyük həcmdə rubl və yuandan qarşılıqlı istifadə barədə razılığa gəliblər. Bu prosesin asan olmadığı məlumdur. Ancaq Amerikanın sanksiyaları, ticari təxribatlar və maliyyə təzyiqləri getdikcə daha geniş vüsət alır. ABŞ dollarının dünya iqtisadiyyatı üçün, faktiki olaraq, alternativsiz dominantlığı Vaşinqtona qlobal maliyyəni istədiyi kimi dövr etdirməyə imkan verir.

Bu baxımdan Moskva və Pekin hesab edirlər ki, istənilən zaman dünya iqtisadi sistemində ciddi böhran yarana bilər. Məhz həmin gözlənilməz və xoşagəlməz hadisəyə qarşı birgə tədbirlərin görülməsindən bəhs edirlər. O cümlədən milli valyutalarla ticarətin aparılması daha dayanıqlı əlaqələr sistemi formalaşdıra bilər ki, bu da Amerika üçün problemlər yaradar. Onu da demək lazımdır ki, digər böyük dövlətlər, məsələn, Türkiyə və İran da milli valyutalarla ticarət aparılmasının tərəfdarıdırlar. Çinin dünyanın ən böyük iqtisadi güclərindən olması bu tendensiyanın dayanıqlı və davamlı olmasına əsas verir.

Sənəddə əks olunan maraqlı məsələlərdən biri də tərəflərin humanitar sferada əməkdaşlığı gücləndirməsinin ayrıca vurğulanmasıdır. İki ölkə xalqlarının qarşılıqlı surətdə mədəniyyətləri tanıtmaları və bu bağlılıqda əlaqələri inkişaf etdirməyə dair razılığın əldə olunması ciddi nəticədir. Məlumdur ki, Çin dili və mədəniyyəti Rusiyanın Uzaq Şərq hissəsində və Mərkəzi Asiyada getdikcə daha da təsirli olur. Görünür, Rusiya həm bu prosesi, həm də özünün dil və mədəniyyətini çinlilərə aşılamağı nəzarətdə saxlamaq qərarına gəlib. Ortaq proqramlarla bu prosesi tənzimləmək olar.

Bunun fonunda "Bir kəmər, bir yol" proqramı ilə Rusiyanın Avrasiyada inteqrasiya proqramının uzlaşdırılması məsələsinin də gündəmə gəlməsi olduqca maraqlıdır. Moskva, faktiki olaraq, Avrasiya İqtisadi İttifaqı ilə "Bir kəmər, bir yol" layihəsi arasında bağlantı qurmağın praktiki aspektlərinə diqqət yönəldə bilib. Beləliklə, Çinin dövlət başçısının Rusiyaya son səfəri rəmzi olaraq "yeni sosialist düşərgəsi"nin yaranması kimi təsəvvür edilə bilər. Çin xüsusi sosializm modeli üzrə inkişaf etdiyini dəfələrlə bəyan edib. Rusiya da onunla ortaq hərəkət etmək qərarına gəlibsə, söhbət, əslində, "yeni sosialist alyansı"nın formalaşmasından gedə bilər. Bu, SSRİ-dən fərqli modeldir. SSRİ-də yeganə hakim güc Rusiya idisə, indi Rusiyanın özü sosializm sahəsində daha uğurlu görünən və çox güclü iqtisadiyyata malik Çin ilə qoşa addımlamaq niyyətindədir.

Doğrudan da, belə bir layihə varsa, bu, dünyanın simasını dəyişə bilər. O halda qlobal geosiyasi proseslər tamamilə yeni dinamika kəsb edər. Bundan bütövlükdə bəşəriyyətin qazanıb-qazanmayacağını demək çətindir. Hər bir halda dünyanın yeni nizama qovuşması üçün geniş imkan yaranmış olacaq.

***Newtimes.az***

# Dənizkənarı ərazilərdə ictimai çimərliklər yaradılır

## *Yer kürəsinin ən böyük gölü olan Xəzər dənizinin sahil zonasının təbii mühiti insan istirahəti və müalicəsi baxımından çox yararlıdır*





***Azərbaycanın zəngin təbii sərvətləri, qədim tarixi və memarlıq abidələri, özünəməxsus mentaliteti, əlverişli ictimai-coğrafi mövqeyi, ölkəmizin böyük potensiala malik olduğunun göstəricisidir. Zənginliyi özündə ehtiva edən Azərbaycanda turizm sektoru sürətlə inkişaf edir və ölkəmiz artıq dünya turistlərinin istirahət üçün seçdikləri əlverişli məkana çevrilib. İnşa olunan otellər, yüksək standartlara uyğun xidmətin göstərilməsi, yeni turizm marşrutlarının açılması, qış turizminin inkişaf etdirilməsi də Azərbaycanda turizm imkanlarını daha da genişləndirib.***

Yayın isti günlərində insanlar istirahət etməyə daha çox ehtiyac duyduqlarından gözəl məkanlara - təbiətin qoynuna və ucqar dağ kəndlərinə üz tutmaqla yanaşı, bu fəslin gözəl anlarını çimərlikdə keçirməkdən də zövq duyurlar.



### ÇİMƏRLİKLƏRDƏ ƏTRAF MÜHİTİN ÇİRKLƏNDİRİLMƏSİ PROBLEMİ ARADAN QALDIRILIR

Xəzərin Azərbaycan sahil zonasının da böyük turizm imkanları vardır. Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadəni təmin etmək məqsədilə, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına uyğun olaraq, "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017-2020-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. Məlum sənəd əsasında Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsinin sahilboyu və çimərlik üçün müəyyən edilmiş yararlı ərazilərinin yaxınlığında müvafiq infrastruktur obyektlərinin inşası, çimərliklərarası sahələrdə su nəqliyyatının sərbəst hərəkəti üçün xüsusi zolaqların normalara uyğun olaraq yaradılması ilə bağlı tədbirlər sırasında zəngin resurslara malik olan bir dənizdə ekoloji vəziyyətin normallaşdırılmasının da əsas məsələlərdən biri kimi yer almışdır. Belə ki, Xəzərə axan çaylar vasitəsilə gələn çirkləndiricilər, sahil zonasında yerləşən şəhərlərdən və sənaye obyektlərindən olan çirklənmə və s. buna səbəb olan amillərdir. Çimərliklərin mühafizəsi sahəsində normativ-hüquqi aktların tələblərini pozan hüquqi və fiziki şəxslərin inzibati məsuliyyətini müəyyən edən qanun layihəsi də hazırlanıb. Tədbirlər Planına uyğun olaraq, Azərbaycanda 2017-2020-ci illərdə çimərliklərdə ətraf mühitin mühafizəsinə dair kompleks tədbirlər həyata keçirilir. Qeyd edək ki, çimərliklərimizin ən böyük nöqsanlarından biri də mövsüm vaxtı tullantılarla ətraf mühitin çirkləndirilməsidir. Bu problemin aradan qaldırılması istiqamətində də vacib işlər görülür. Bakı və Abşeron yarımadasında Bilgəh, Nardaran, Pirşağı, Zuğulba və Mərdəkan çimərlikləri istisna olmaqla Sumqayıt, Novxanı, Buzovna, Şüvəlan, Türkan, Hövsan, Şıx, Sahil, Xaçmazın Yalama, Seyidlər, İstisu (Müqtədir), Nabran, Lənkəran və Astara ərazilərindəki çimərliklər mikrobioloji baxımdan çirklidir.



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yerli və beynəlxalq tərəfdaşlarla birgə, mütəmadi olaraq, Azərbaycan və regionun su bioresurslarının qorunub-saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edilir. Bildiyimiz kimi, bu yaxınlarda çimərlik mövsümünün başlanması ilə əlaqədar olaraq, IDEA İctimai Birliyinin təşkilatçılığı ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası keçirildi. Novxanı çimərliyində təmizlik aksiyasının keçirilməsinin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 11-ci aksiya idi.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları çimərlikdən 2 tona yaxın tullantı toplayıblar.

### İCTİMAİ ÇİMƏRLİKLƏR PAYTAXT SAKİNLƏRİ TƏRƏFİNDƏN MƏMNUNLUQLA QARŞILANIR

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə dənizkənarı ərazilərdə mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq, ictimai çimərliklərin yaradılmasına başlanıb. İlk olaraq, belə çimərlik Şıx çimərliyi ərazisində dəniz kənarında 6 hektar sahədə yaradılıb. Əvvəllər baxımsız vəziyyətdə qalan ərazi təmizlənərək abadlaşdırılıb və vətəndaşların istirahəti üçün münasib şərait yaradılıb. Dəniz kənarına doğru uzanan yola asfalt çəkilib, 3500 kvadratmetr ərazidə avtomobil dayanacağı yaradılaraq asfaltlaşdırılıb. Burada 60 kölgəlik, 6 yerdə soyunub-geyinmə kabinaları, 2 yerdə duş, 2 yerdə 2 kabinalı sanitariya qovşağı, istirahətə gələn vətəndaşların nahar etmələri üçün 2 söhbətgah quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb. Vətəndaşların istirahətlərinin təşkili üçün çimərlik ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazi boyunca zibil konteynerləri quraşdırılıb.

Görülən işlər bura istirahət üçün üz tutan insanlar tərəfində böyük məmnunluqla qarşılanır. Ümumilikdə, paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulub.

Şıx ərazisində fəaliyyətə başlayan və digər ərazilərdə yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyinin lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərəcək.

Qeyd edək ki, ictimai çimərliklər paytaxt sakinlərinin IDEA İctimai Birliyinə etdikləri müraciətlər əsasında onların arzu və istəkləri nəzərə alınaraq yaradılıb.

Yer kürəsinin ən böyük gölü olan Xəzər dənizinin sahil zonasının təbii mühiti insan istirahəti və müalicəsi baxımından çox yararlıdır. Bolluca günəş radiasiyası, uzun və geniş çimərliklərdəki narın qumlar və s. burada istirahət imkanlarının Qafqazın məşhur Qara dəniz sahillərindən üstünlüyünə əsaslanan faktlardır. Xəzər dənizi sahilləri Azərbaycan vətəndaşlarının əsas istirahət zonaları olduğundan, bura üz tutanların sayı çoxdur. Bu gün ictimai çimərliklərin yaradılması, əlbəttə ki, insanların yayın qızmar çağında istirahətini maraqlı, rahat və yaddaqalan keçirmələri üçün böyük əhəmiyyət kəsb etmiş olur.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Yayda da xəstələnərlər?



***Əgər yay mövsümündə xəstələnmişiksə, o zaman bizə ən çox verilən - "yayda da xəstələnərlər" sualıdır. Amma bilməliyik ki, havaların isti keçməsi bütün xəstəliklərdən sığortalanmışıq anlamına gəlmir. Çünki bu mövsümün xəstəlikləri digər fəsillərdə yoluxduğumuz infeksiyalardan daha fərqli və daha "çeşidli"dir. Düzgün qəbul etmədiyimiz günəş sevinci, tərs zamanda yediyimiz çeşidli qidalar, əndazəsini aşdığımız istirahət keyfi və daha nələr-nələr sonda ağır xəstəliklərlə nəticələnə bilir.***

ARAŞDIRMA



**Azərbaycan Tibb Universitetinin tibb üzrə fəlsəfə doktoru, həkim-terapevt Nağdəli Zamanov bildirib ki, hər mövsümdə olduğu kimi, yayın da öz xəstəlikləri var.**

## Yay mövsümünün xəstəlikləri hansılardır?

Onun sözlərinə görə, yayda insanlar arasında yayılan əsas xəstəliklər mədə-bağırsaq sisteminin pozulması, istivurma və ya günvurma, zəhərlənmələr eləcə də digərləridir: "Düzdür, yay mövsümündə digər fəsillərdə yoluxdumuz xəstəliklər daha az müşahidə olunur. Bu mövsümdə qan-damar, revmatizma və digər bu kimi xəstəliklərə demək olar ki çox az rast gəlinir. Amma buna baxmayaraq, yay mövsümünün də özünün riskli xəstəlikləri az deyil. Belə ki, yayda günvurma və istivurma xəstəliyinə tutulmamaq üçün insanlarımız günəşin ən qızmar saatlarında çölə çıxmamalı, havanın temperaturu 40 dərəcədən yüksək olduqda açıq havada işləməməlidirlər. Yüksək təzyiqdən, endokrin sistemi xəstəliklərindən, ürək ritminin pozulmasından əziyyət çəkənlər və çəki artıqlığı olanlarda günvurma halları daha çox müşahidə olunur. Həmin kateqoriyadan olanlar isti günəş şüaları altında çox qalmamağa çalışmalıdırlar. Lakin hansısa zərurətdən buna məcbur olduqda mütləq qoruyucu vasitələrdən, məsələn, papaq, baş örtüyü, çətir və s. istifadə etmək lazımdır. Onlar həmişə öz yanlarında sərin su gəzdirməli və çoxlu maye qəbul etməlidirlər".

## Günvurma və istivurma zamanı nə edək?

Həkim-terapevt söyləyib ki, günvurma nəticəsində orqanizmdə ciddi problemlər yarana bilər, ürəkbulanma, gözün qaralması, güclü başağrıları və bəzən də qusma halları baş verir: "Belə olan halda ilk növbədə günəşin təsirinə məruz qalan xəstəni sərin və kölgəli yerə çəkmək, üst geyimlərini yüngülləşdirmək lazımdır. Bədən hərarətini aşağı salmaq üçün ona soyuq ılıq və daha sonra isə qoyuq su vermək, üzünü və sinəsini su ilə silmək lazımdır. Başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə buz və ya bu mümkün olmadıqda su ilə islatma qoyulmalıdır. Huşunu itirdiyi halda



zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda isə süni tənəffüs vermək tələb olunur. Bundan sonra mütləq həkimə müraciət etmək lazımdır".

## Zəhərlənmək istəmirsinizsə...

N. Zamanov söyləyib ki, yay mövsümünün xəstəlikləri arasında mədə-bağırsaq sisteminin pozğunluqları çoxluq təşkil edir: "Bağırsaq infeksiyaları yay və bürkülü havanın əsas təhlükə mənbəyidir. Toksinlər su və ərzağa düşəndən sonra orqanizmi zəhərləyir, ən uzağı, iki saat ərzində ürəkbulanma, titrəmə, qusma, qarında kəskin ağrılara səbəb olur. Ona görə də belə hallarda dərhal mədə tərkibinə marqans qatılmış 1 litr isti su ilə yuyulmalı, 4 həb aktivləşdirilmiş kömür içilməlidir. Yay mövsümündə zəhər-



lənmələrdən "qaçmaq" üçün hər kəs yediyi qidasına xüsusi diqqət etməli, xüsusilə də onların saxlanma şəraitinə fikir verməlidir. Ərzaq məhsullarının saxlanması və hazırlanması zamanı gigiyenaya riayət etmək mütləqdir. Ümumilikdə isə yay aylarında yağlı qidaların qəbulundan uzaq durmaq, daha çox ağartı və meyvə tərəvəzə üstünlük vermək məsləhət görülür".

## Uşaqlarımızın üzləşdiyi infeksiyalar

Səhiyyə Nazirliyinin Pediatriya üzrə baş mütəxəssisi Nəsib Quliyev söyləyib ki, yay mövsümündə uşaqlarda da böyüklər kimi daha çox istivurma və günvurma, zəhərlənmə müşahidə olunsa da, allergik xəstəliklər də balacalardan yan keçmir: "Yayda təbiət bizə övladlarımızı payız və qış mövsümünə hazırlamaq imkanı verib ki, biz bundan düz-



gün istifadə etməyi bacarmalıyıq. Bu mövsumdə səniz, günəş, qum vannaları, vitaminlərlə zəngin yeni meyvə və tərəvəzlər uşaqlarımızın immun sisteminin möhkəmləndirməyə imkan verir. Necə deyərlər qışın hazırlığını yayda görməliyik. Amma bütün bunlarla yanaşı yay aylarında diqqətli olmağımızı tələb edən məsələlər də var. Uşaqları birbaşa günəş vannaları altında saxlamaq qorxulu fəsadlara gətirib çıxara bilər. Balacaları uzun müddət günəş altında saxlamaq qəti şəkildə məsləhət görülmür".

## Övladlarımızın sağlamlığını necə qoruyaq?

Mütəxəssis qeyd edib ki, uşaqların günəş vannası qəbulu səhər 06:00-11:00 arasında olmalıdır: "Bu saatdan sonra günəş şüalarının tərkibində olan infroqırmızı şualar o qədər şiddətlənir ki, onlar uşaqların bədənində yanıq və günvurma törədir. Dənizdə çimmək istəyənlər 16:00-dan sonra suya girə bilərlər. Bunlara riayət etməklə uşaqlarımızı yay xəstəliklərinin bir qismindən azad etmiş oluruq. Bununla yanaşı uşaqlara verdiyimiz qidaların saxlanma şəraitinə də xüsusi fikir verməliyik. Bildiyiniz kimi isti mühit bir çox bakteriyaların, mikrobların artmasına şərait yaradır. Bu özünü ən çox həzm pozğunluqları, mədə-bağırsaq infeksiyaları ilə göstərir. Hər bir uşaq öz yaşına görə qi-



dalanmalıdır. Yay aylarında 6 ayına çatan köpələrə əlavə qidaların verilməsinə tələsməməliyik. Çünki bu, uşaqlarda mədə-bağırsaq pozulmalarına səbəb olur. Bundan başqa allaergik xəstəliklər var ki, onlar yaz mövsümündə daha çox yaransa da, yay aylarında da davam edir. Həşəratların sancdığı zaman ifraz etdiyi şirələr uşaqlarda allergik xəstəliklərə səbəb olur. Hər kəsə məlumdur ki, allergik reaksiyalara səbəb olan meyvə-tərəvəzlər var ki, yay mövsumundə onların qəbulu fəsadlar yaradır. Allergik reaksiyalarına görə, tərəvəzlərdən pomidor, bostan bitkiləri arasında çiyələk, meyvələr arasında isə portağal və naringi ilk yerdə dayanır. Valideynlər uşaqlarının hansı qidaya qarşı həssas olmasını bilməlidirlər. Çünki allergiyanın bir neçə dəfə təkrarlanması ağır fəsadlarla nəticələnə bilər".

## Valideynlərə məsləhət!

N. Quliyev qeyd edib ki, yay aylarında valideynlər övladlarına bu mövsumun bəxş etdiyi fürsətlərdən bəhrələnmək imkanı yaratmalıdırlar: "Valideynlər tənbəllik, məzuliyyətsizlik edərək uşaqların sağlamlıq, istirahət hüquqlarını əllərindən almamalıdırlar. Valideyn öz üzərinə düşən məsuliyyəti yerinə yetirməlidirlər. Biz övladlarımızın yay aylarında düzgün istirahətinə maksimum şəkildə çalışmalıyıq. Əks halda payız-qış mövsümündə soyuqdəymə xəstəliklərinin sayının kəskin şəkildə çoxaldığı ilə üz-üzə qalacağıq".

Qeyd edək ki, yay fəsli ərzində günvurma ilə əlaqədar təcili yardıma 27 müraciət daxil olub. Müraciət edən şəxslərdən 17 nəfəri hospitilizasiya olunub. Onlardan 3-ü uşaqdır. Ümumilikdə isə ötən illə müqayisədə bu il günvurma ilə bağlı təcili tibbi yardıma müraciətlərin sayı azdır. Bu da havaların sərin keçməsi ilə əlaqələndirilir.

***Nailə Məhərrəmova***

# "Sosial paketin həyata keçirilməsi əhalinin iqtisad fəallığının artmasına səbəb olacaq"

***Bu il sosial sahədə aparılan islahatlar əvvəlki illərdəkindən xeyli fərqlənir. İlin əvvəlindən həyata keçirilməyə başlanılan birinci sosial islahatlar paketi 3 milyon vətəndaşı əhatə etdi. İlin ortalarında dövlət başçısının imzaladığı Sərəncama əsasən ikinci sosial paket daha geniş əhali təbəqəsini əhatə edir və növbəti mərhələdə 1 milyon 350 min vətəndaşın əməkhaqqında artım baş verəcək. Aparılan həmin dayanıqlı islahatlar, şübhəsiz ki, əhalinin gəlirlərinə və iqtisadi fəallığının artmasına səbəb olacaq.***



AZƏRTAC xəbər verir ki, bu barədə iyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirə barədə danışarkən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov məlumat verib. Nazir müavini budəfəki sosial paketə 300 min əlil, 500 min məcburi köçkün, 100 min tələbə və gəncin daxil olduğunu da qeyd edib.

Özünüməşğulluq proqramından danışan nazir müavini bildirib ki, bu yeni proqramın vacib xüsusiyyətlərindən biri onun əsasən regionlarda yaşayan əhaliyə ünvanlanmasından ibarətdir. Onun dediyinə görə, bu illər ərzində dövlət başçısı tərəfindən həmin proqramın icrasına 56 milyon manat ayrılıb: "Artıq həmin proqram uğurlu nəticələr verir. Onun genişləndirilməsi üçün Dünya Bankı və BMT-nin İnkişaf Proqramı ilə danışıqlar aparılır. Artıq mütəxəssislər arasında müzakirələr gedir və ilin ikinci yarısında yekun sənədlər imzalanacaq. Güman edirik ki, bu ilin axırlarına qədər 10 min nəfər həmin proqramdan bəhrələnə biləcək.

Bu il ərzində həmin proqramla əlaqədar rekord sayda - 45 min müraciət edilib. İndiyədək proqramda iştirak etmək üçün 4 min nəfərə təlimlər keçirilib, 1000 nəfər aktivlərlə təmin olunub və getdikcə onun genişlənəcəyi gözlənilir.

Proqramın digər bir xüsusiyyəti də onun aktiv məşğulluq tədbirlərinə keçid rolu oynamasıdır. Ölkəmizdə bir tərəfdən həssas təbəqələrə göstərilən ünvanlı sosial yardımın dərəcəsi genişləndirilib, digər tərəfdən özünüməşğulluq proqramının genişləndirilməsi əhalinin məşğulluq proqramına daha fəal keçməsini təmin edəcəkdir. Əlbəttə, bu da özünəməxsus bir startap formasıdır və yaxın gələcəkdə, daha dəqiq desək 2030-cu ilə qədər həmin proqramın miqyası daha da genişləndiriləcək.

Nazir müavini qeyd edib ki, uğur uğur gətirər. Bu proqram uğur qazandıqca digər əməkdaşlıq proqramı olan ABAD-la da əməkdaşlıq üçün zəmin yaranır və həmin proqramın da genişlənməsinə səbəb olacaq.

A.Kərimov daha sonra deyib: "Hər bir islahatın vacib meyarlarından biri də onun hansı institutlar vasitəsilə həyata keçirilməsidir. Bir məsələni də qeyd etmək lazımdır ki, həmin islahatların həyata keçirilməsi üçün 190-a yaxın qanunvericilik təşəbbüsü göstərilib və onlardan 40-ı sosialyönümlüdür. Dövlət başçısı müasir texnologiya və innnovasiyalara daha çox üstünlük verməyi qarşıya məqsəd qoyub. İlin axırınadək əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin ödənilməsinə xidmət edən yeni "DOST" mərkəzlərinin açılışının şahidi olacağıq. Məlum olduğu kimi, bu ilin mayında açılan ilk "DOST" Mərkəzində 22 mindən çox müraciət qeydə alınıb və onun xidməti vətəndaşlar arasında böyük məmnunluq doğurur.

Bu il ərzində 13 min ölkə vətəndaşı heç bir quruma üz tutmadan və heç bir sənəd təqdim etmədən pensiya ilə təmin olunub. İlin axırına kimi təqribən 25 min vətəndaş bundan bəhrələnəcək. Həmçinin ilin sonunadək müavinət və təqaüdlərin ödənilməsinin də bu tərzdə aparılacağı nəzərdə tutulub və bundan təxminən 200 min ölkə vətəndaşı istifadə edəcək.

Dövlət başçısının üç tapşırığını xüsusi qeyd etmək istərdim. Bu, ilk növbədə, əhalinin gəlirlərinin artırılması və onun diqqət mərkəzində saxlanılmasıdır. Əlbəttə, bu, çox mühüm məsələdir və son islahatlar paketi nəticəsində minimum pensiya və əməkhaqqına görə MDB-də ön sıralara çıxmışıq və həmin mövqeni qorumağa çalışacağıq. İkincisi, sosial xidmətlərin göstərilməsində vətəndaş məmnunluğunun təmin edilməsidir. "DOST" mərkəzlərinin əhatə dairəsinin genişləndirilməsi əhaliyə göstərilən xidmətlərin sürət, operativlik və əhatəlilik baxımından yüksəlməsinə səbəb olacaq. Üçüncüsü isə məşğulluq tədbirlərinə xüsusi əhəmiyyət verilməsidir və özünüməşğulluq proqramı getdikcə genişləndiriləcək. Bir statistikanı qeyd etmək lazımdır ki, özəl sektorda bağlanılan əmək müqavilələrinin sayı bu ilin altı ayı ərzində 14 faiz artıb və bu, 78 min əmək müqaviləsi deməkdir. Eyni zamanda, özəl sektorda əməkhaqqı fondu 23 faiz artıb və əhali üçün iş yerlərinin yaradılması əsas hədəflərdən biri olacaqdır".

# Tahir Mirkişili: "2019-cu ilin sürətli iqtisadi inkişaf ili olacağı əvvəlcədən gözlənilirdi"



2019-cu ilin sürətli iqtisadi inkişaf ili olacağı əvvəlcədən gözlənilirdi. Bu artımı şərtləndirən əsas amillər Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar, ölkədə islahatlar üçün əlverişli mühitin olması, uzun illər ərzində həyata keçirilən iri layihələrin, inşa edilən müəssisələrin fəaliyyətə başlamasıdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tahir Mirkişili deyib. Deputat qeyd edib ki, aparılan islahatlara və təşəbbüslərə, dövlətimizin başçısının çağırış və tövsiyələrinə iqtisadi subyektlər lazımi dəstəyi və reaksiyanı verərək makroiqtisadi göstəricilərdə müsbət dinamika göstəriblər. Belə ki, ötən müddət ərzində ÜDM-in 2.4 faiz, qeyri-neft sektorunun 3.2 faiz, qeyri-neft sənayesinin 15.7 faiz, kənd təsərrüfatı istehsalının 13 faiz, qeyri-neft ixracının 15 faiz, valyuta ehtiyatlarının 4 milyard dollar artması deyilənlərə sübutdur.

Onun sözlərinə görə, 2018-ci ildə qanunvericilik bazasının təkmilləşməsi iqtisadi tənzimləməni daha effektiv edib və iqtisadi subyektlərin şəffaflığa və haqlı rəqabətə inamını daha da artırıb. 2019-cu ilin 6 ayının yekunlarına əsasən dövlət büdcəsi gəlirlərinin 440 milyon manat, vergi yığımlarının 8.8 faiz, gömrük, yığımlarının 8 faiz artması, vergi ödəmələrində qeyri-neft sektorunun payının 70 faizi ötməsi, 100 mindən çox yeni əmək müqavilələrinin imzalanması bu deyilənlərə sübutdur.

# "Paşinyan danışıqlar aparmaqdan boyun qaçırır"



"Bu ilin sentyabrın əvvəllərində qondarma "DQR"-da seçkilər keçiriləcək. Ermənistanın baş naziri Nikol Paşinyanın əsas məqsədi odur ki, bu yerli seçkilərdə ona simpatiya ilə yanaşan xadimlər qalib gəlsinlər". Bunu SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib.

Politoloqun sözlərinə görə, Paşinyan bu qabiliyyətlə də çalışır ki, gələn il bu qondarma rejimdə keçirilən qondarma prezident seçkilərində öz namizədinin qalibiyyətini təmin etsin: "Paşinyanın avqustun 5-də Xankəndində keçirəcəyi mitinqdə də əsas məqsəd məhz bundan ibarətdir. Çox güman ki, onun çıxışı yerli yeni qondarma separatçı qurumun elektoratına ünvanlanacaq. Əlbəttə ki, bu acınacaqlı haldır. Nəzərə alsaq ki, Paşinyan Azərbaycanın işğal olunmuş torpaqlarına səfər edir və orada siyasi fəallıq göstərir. Bu səfərlər təxribatçı xarakter daşıyan səfərlərdir. Çünki bu onu göstərir ki, Ermənistan həmin ərazilərdə hökmranlıq edir və o əraziləri boşaltmaq niyyətində deyil. Paşinyan Azərbaycanla danışıqlar aparmaqdan boyun qaçırır. Təəssüflər olsun ki, bu cür səfərlər xarici müşahidəçilər, ATƏT-in Minsk Qrupu tərəfindən lazımi siyasi qiymət almır. Siyasi qiymət almadığı üçün də belə səfərlər, bu siyasi oyunlar sürətlə inkişaf etdirilir".

# "Jurnalistikaya təsadüfi gələn adamların qarşısı alınıb"



"Qabiliyyət imtahanının jurnalistikada tətbiq olunması təsadüfən baş verməyib". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib. Sədrin sözlərinə görə, Azərbaycanda jurnalistikaya qəbul imtahanları ilk dəfə 2014-cü ildə keçirilib: "Artıq ilk dəfə imtahan verən şəxslər məzun olurlar və redaksiyalara gedərək öz fəaliyyətlərini uğurla davam etdirirlər. Proses başlayanda bir qədər çətin kimi görünürdü. Amma zaman göstərdi ki, burada heç bir çətinlik yoxdur. Bildiyiniz kimi 2014-cü ildə proses başlayanda həmin il cəmi 126 nəfər jurnalistikaya qəbul olunmuşdu. Amma bu rəqəm artaraq və 2018-ci ildə artıq 225 nəfər səviyyəsinə çatdı. Bu il yerlərin sayı daha da artırılıb və hal-hazırda 270 nəfərin jurnalist olması üçün şərait yaradılıb. Təbii ki, müsabiqəyə maraq göstərənlər də çoxalıb. Təqribən 480 nəfərdən artıq şəxs müsabiqəyə qatılıb. Həmçinin burada kəmiyyət dəyişikliyi vardır. Deməli, müraciət edənlərin təqribən yarıdan çoxu 400 və daha artıq bal toplamış şəxslərdir. Təbii ki, bu da yaxşı göstəricidir. Düzdür, minimal keçid balı 200 olsa da burada ərizə ilə müraciət edənlərin sayı 400-dən artıq test imtahanında bal toplamış şəxslərdirlər. Bu da keyfiyyətcə bir yüksəlmə deməkdir. Hətta onların arasında 600-dən artıq bal toplamış kifayət qədər şəxslər var. Bu o deməkdir ki, artıq bizim abituriyentlər düşünmüş şüurlu şəkildə yüksək bal toplayaraq və jurnalistikanı sevərək bu sahəyə gəlirlər. Burada kifayət qədər beynəlxalq jurnalistikada təhsil almaq istəyənlərin də sayları artırılıb. Həm rus, həm də ingilis dilində jurnalist təhsili almaq istəyənlər üçün şərait yaradılıb və qəbul yerləri var. Hesab edirik ki, bu çox yaxşı nəticədir. Artıq jurnalistikaya təsadüfi gələn adamların qarşısı alınıb".

***Ceyhun Rasimoğlu***

# Bakıda lombarda basqın edən şəxslər saxlanılıb



Xətai rayonu ərazisində yerləşən lombardlardan birində işləyən qadına qarşı quldurluq edilib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə zamanı zərərçəkənin baş nahiyəsinə xəsarət yetirən naməlum şəxslər quldurluq yolu ilə pul və qızıl-zinət əşyaları götürərək hadisə yerindən qaçıblar.

Faktla bağlı məlumat daxil olan kimi DİN, Bakı Şəhər Baş Polis İdarəsi və Xətai Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, zərərçəkənin izahatı alınıb. Cinayəti törətməkdə şübhəli bilinənlərin şəxsiyyəti həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində qısa zamanda müəyyənləşdirilib. Əməliyyat zamanı həmin şəxslər - Ağcabədi rayon sakini Nəbi Əhmədov və Füzuli rayon sakini, əvvəllər məhkum olunmuş Ceyhun Əliyev tutularaq istintaqa təqdim ediliblər.

Saxlanılan şəxslər ifadələrində törətdikləri cinayəti etiraf ediblər. Onlar lombarda daxil olan zaman özlərini su idarəsinin əməkdaşları kimi təqdim etdiklərini bildiriblər. Hadisə zamanı N.Əhmədov və C.Əliyev lombardın müşahidə kamerasının yaddaş blokunu da çıxararaq özləri ilə aparıblar. Faktla bağlı Xətai Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

# ABŞ Ermənistandan üz çevirir

## *Qagik Abramyan: "ABŞ-ın Dövlət Departamenti və "Ağ Ev" növbəti dəfə Paşinyanın xarici siyasətindən narazı qaldıqlarını nümayiş etdirir"*



***Ermənistanın baş naziri Nikol Paşinyanın ölkənin daxili və xarici siyasətindəki ardıcıl uğursuzluqları artıq ənənvi hal alıb və erməni cəmiyyəti bu uğursuzluqlardan ciddi tərzdə təlaş keçirməyə başlayıb. Belə ki, ABŞ-ın Ermənistana və erməni işğalında olan qondarma "DQR"ə maliyyə yardımlarını azaltması, hətta dayandırması məsələsi Ermənistanın ictimai rəyində və ölkə mətbuatında ən çox müzakirə edilən mövzuya çevrilib.***

"Paşinyan üçün əsas olan daxili siyasət meydanıdır, o xarici siyasətə kifayət qədər az diqqət yetirir". Bu barədə "tert.am" saytına erməni politoloqu Qagik Abramyan sözügedən mövzu ilə bağlı açıqlamasında deyib. Onun sözlərinə görə, ABŞ hökuməti "Artsax"a (dırnaqlar bizimdir-R.N.) maliyyə yardımlarını azaldacaq, Ermənistana gəldikdə isə, burada çox da böyük gözləntilərə ümid etməyə ehtiyac yoxdur.

### "ABŞ-da təsiredici qüvvəyə malik böyük diasporamız var, lakin biz onu da bilirik ki, "KTMT"-nin, Avrasiya İqtisadi İttifaqının üzvüyük və Rusiyanın 102-ci hərbi bazası Ermənistanın ərazisində yerləşir"

Abramyana görə, Tramp belə bir düşüncə ilə çıxış edir ki, əgər hansı ölkə ABŞ-dan böyük yardım alır, lakin onun xarici siyasətini dəstəkləmir, onda həmin yardım dayandırılacaq. SİTAT: "Məhz bu mənada, bizdə böyük gözləntilər ola bilməz. Halbuki bizim ABŞ-da təsiredici qüvvəyə malik böyük diasporamız var, lakin biz onu da bilirik ki, "KTMT"-nin, Avrasiya İqtisadi İttifaqının üzvüyük və Rusiyanın 102-ci hərbi bazası Ermənistanın ərazisində yerləşir".

Beləliklə, erməni politoloqu, haqlı olaraq, belə nəticə çıxarır ki, Ermənistan ya Rusiyanın, ya da ABŞ-ın yanında olmalıdır, əks halda amerikalıların maliyyə yardımları birdəfəlik kəsilə bilər. Daha doğrusu, Nikol Paşinyan bir əldə iki qarpız tutmaqla, Ermənistanın vəziyyətini daha da gərginləşdirir. Ona görə də, Q.Abramyan "Biz onu da bilirik ki, hazırkı məqamda rus-amerikan münasibətləri hansı səviyyədədir. Bəli, ABŞ Ermənistan Respublikasında cərəyan edən siyasi məsələlərə, yumşaq yanaşır, ancaq mən, birmənalı olaraq, deyə bilmərəm ki, ABŞ Ermənistana böyük yardımlar edəcək" deyə maraqdoğurucusu fikirlərini səsləndirib.

### "Biz "Artsax"a yardımın dayandırılması məsələsi ilə qarşı-qarşıdayıq, bu da, bizi düşünməyə vadar edir, xüsusilə, o planda ki, Tramp hakimiyyəti Nikol Paşinyan hökumətinə hansı mesajı göndərir?"

Qarabağa maliyyə yardımının dayandırılmasına gəlincə, erməni politoloqu bunu təəccüblü və eyni zamanda, narahatlıq doğuran hal kimi qiymətləndirib.

Q.Abramyan deyir ki, Amerikanın Erməni Milli Komitəsinin rəhbəri Aram Ambaryanın bildirdiyinə görə, ABŞ-ın "Artsax"a maliyyə yardımı məqsədini daşıyan və iki ay əvvəl qəbul edilən qanun layihəsi dəyişdirilir: "Bu dəstək ildə 5 milyon dolları təşkil edirdi və proqram USAİD vasitəsi ilə həyata keçirilirdi. Burada məsələ yalnız pul vəsaitlərinin ölçüsündə deyil, məsələ mövcud olan qərarda və məsajdadır. Hazırda biz "Artsax"a yardımın dayandırılması məsələsi ilə qarşı-qarşıdayıq, bu da, bizi düşünməyə vadar edir, xüsusilə, o planda ki, Tramp hakimiyyəti Nikol Paşinyan hökumətinə hansı mesajı göndərir? Bununla yanaşı, ABŞ-ın Dövlət Departamenti və "Ağ Ev" növbəti dəfə Paşinyanın xarici siyasətindən narazı qaldıqlarını nümayiş etdirir".

Erməni politoloqu əsas problemin Paşinyan olduğunu gizlətmir: "Sadəcə, baş verənləri bizim hakimiyyətin xarici siyasətindəki növbəti səhvi kontekstində görmək lazımdır. Paşinyan, artıq bir ildir ki, Ermənistana rəhbərlik edir və onun üçün əsas olan daxili siyasət sahəsidir. O, xarici siyasətə kifayət qədər az vaxt ayırır".

Ancaq gəlin görək Nikol Paşinyan yalnız xarici siyasətində nə qədər ciddi nöqsanlar törədir? Çünki digər məlumat digər nəticələrə də gəlməyə zəmin yaradır.

### Nikola qarşı 20 müxalifət partiyasını birləşdirən blok yaradılır - Ermənistanın "Past" qəzeti: "Məlumatlar var ki, yeni müxalifət blokuna kifayət qədər tanınmış siyasi xadimlər, eləcə də, ictimai təşkilatlar və ekspertlər daxil olacaqlar"

Misal üçün, Ermənistanın "Past" qəzeti yazır ki, Ermənistanda 20 partiyanı birləşdirəcək yeni müxalifət bloku yaradılır və bu blok birbaşa Nikol Paşinyanın istefasını tələb edəcək. "Ermənistanın daxili siyasətində bu payız yeni və ciddi inkişaf gözlənilir, xüsusilə, müxalifət seqmentində" deyə yazan erməni nəşri qeyd edir ki, hazırda kulisarxası müzakirələr aparılır, hələ oktyabrda yeddi partiyanın konsolidasiyasını əks etdirən və həqiqətdə, digər siyasi qüvvələri də birləşdirəcək 20 siyasi gücün bloku formalaşdırılacaq. SİTAT: "Partiyalar artıq "işçi sənəd" deyilən və ictimaiyyətə açıq olan bəyanatını da hazırlayır ki, burada onlar məqsəd və məramlarını açıqlayacaqlar. Məlumatlar var ki, yeni müxalifət blokuna kifayət qədər tanınmış siyasi xadimlər, eləcə də, ictimai təşkilatlar və ekspertlər daxil olacaqlar".

Bütün bunlar isə, xəbər verir ki, artıq Ermənistan anti-Paşinyan siyasəti ilə çalxalanmağa başlayır. Erməni baş nazirinin hələ "məxməri inqilab" zamanı yalnız natiqlik edib, vədlər verməsi, indi isə həmin vədlərini yerinə yetirə bilməməsi, o cümlədən, həm daxili, həm də xarici siyasətdə uğursuzluqlara düçar olması öz sözünü deyir.

*Rövşən NURƏDDİNOĞLU*

# Ermənilər maliyyə yardımının kəsilməsində Türkiyə və Azərbaycanı ittiham edirlər

### David Babayan: "Öyrənməliyik ki, ABŞ öz geosiyasi baxışını dəyişib, yoxsa, bu Türkiyə və Azərbaycanın lobbiçilik fəaliyyətinin nəticəsidir?"



İşğal altındakı Qarabağın separatçıları "Hay Dat" erməni komitəsinin ABŞ administrasiyasının "Artsax"a (dırnaqlar bizimdir - R.N.) maliyyə yardımını kəsəcəyi ilə bağlı bəyanatından kəskin narahatlıq keçirməkdədirlər. Ermənilərin "1in" saytı xəbər verir ki, adıçəkilən erməni komitəsi həmin qərarın dəyişdirilməsi ilə bağlı "səfərbər" olunub və s.

"Hay Dat" komitəsi həyəcanlı informasiyanın olduğunu bildirib və qeyd edib ki, ABŞ administrasiyasının "Artsax"a humanitar və maliyyə yardımları dayandırıla bilər" deyə qeyd edilən məlumatda qondarma "DQR"in "xarici işlər nazirinin mətbuat katibi" Ani Sarqsayana müraciət olunub. "ABŞ-ın erməni təşkilatları ilə birgə "Artsax"a humanitar yardımın saxlanılması istiqamətində işlər aparılır" deyə separatçıların təmsilçisi bildirib.

### "Anlaşılmalıdır ki, Vaşinqton bu məsələnin həyata keçirilməsi üçün nə qədər qərarlıdır"

"DQR"in digər separatçı təmsilçisi, "prezident aparatı rəhbərinin müavini" David Babayan isə, bir az da həyəcanını gizlədə bilməyərək, bu məsələdə Türkiyə və Azərbaycan lobbisindən şübhələndiyini həyasızcasına bildirib: "Biz, ilk öncə, dərindən təfərrüata varmalıyıq ki, nə baş verir, baş verənlər realdır, yoxsa belə deyil, hansı hədəflər var və səbəbi nədir?" deyə bldirən D.Babayan sözügedən məsələdə ABŞ-ın geosiyasi baxışını dəyişdiyini də istisna etməyib: "Öyrənməliyik ki, ABŞ öz geosiyasi baxışını dəyişib, yoxsa, bu Türkiyə və Azərbaycanın lobbiçilik fəaliyyətinin nəticəsidir? Anlaşılmalıdır ki, Vaşinqton bu məsələnin həyata keçirilməsi üçün nə qədər qərarlıdır".

Babayan Ermənistan və Qarabağ ermənilərinin diaspora olaraq birləşməli olduqlarını desə də, digər tərəfdən, Azərbaycanın bu yaxınlarda Fransanın bir neçə şəhər və bələdiyyələrinin "DQR"lə əlaqələrini kəsməsi yönündə əldə etdiyi uğurunu da xatırladıb.

*Rövşən RƏSULOV*

# "Polislərin hüquqları pozulur, diskriminasiya halları var"



"Ermənistanın ombudsmanının ofisindən bildirilir ki, qurum konstitusiya məhkəməsinə müraciət edərək, barələrində cinayət işi qaldırılmış və işləri istintaqda olan polis işçilərinin hüquqlarının pozulduğundan narahatlıq keçirdiyini bəyan edib". SİA xəbər verir ki, bu barədə panorama.am saytı yazır.

Məlumata görə, məsələ ondadır ki, barələrində cinayət işi qaldırılmış və işləri istintaqda olan polislər eyni zamanda əmək haqqı almaqdan, öz xahişi olmadan işdən uzaqlaşdırılırlar və eyni zamanda başqa işə təyin olunmaq hüququndan məhrum olurlar. "Mövcud vəziyyətdə hər hansı bir polisə qarşı irəli sürülmüş ittiham məhkəmənin qərarı ilə sübuta yetirilmirsə, həmin polis həm özünün, həm də ailəsinin tələbatlarını ödəyəcək vəziyyətdə olmur", deyə qeyd edilən məlumatda o da bildirilir ki, nəticədə onun bir sıra hüquqları pozulur. Xüsusilə azad iş seçmə, şəxsinə və ailəsinə hörmətdən məhrum olma kimi hallar baş qaldırılır, günahsızlıq prizumpsiyası pozulur, bu da diskriminasiya kimi qiymətləndirilir.

*Rövşən RƏSULOV*

# Paşinyanın sərsəm xarici "siyasəti"




## *Son təxribatlar Nikolun kürsüyə "əlvida" deməsini tezləşdirə bilər*

Cari ilin iyul ayının 28-29-da Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatlar, bu təxribatların Azərbaycan tərəfindən cavab atəşi ilə susdurulması, nəticədə, erməni əsgərlərinin ölümü işğalçı ölkədə vəziyyəti daha da gərginləşdirib. Belə ki, əsgər analar övladlarının ölümü ilə bağlı Paşinyana qarşı etiraz aksiyaları təşkil edərək, istefa verməsini tələb edirlər.

Erməni mətbuatının yazdığına görə, etirazların ardı-arası kəsilmir. Əyalətlərdə narazılıqlar pik həddindədir. Aclıq, səfalət içində yaşayan bölgə sakinlərinin işsizlik, sosial-məişət qayğıları, vəziyyəti daha da gərginləşdirib. 1 il əvvəl vətəndaşlara müxtəlif vədlər verməklə, hakimiyyətə gələn Nikol Paşinyan özü belə problemlərin öhdəsindən gəlməkdə aciz qaldığını etiraf edir. Ermənistan özünün ən ağır, acınacaqlı günlərini yaşayır. Məmur özbaşınalıqları da sakinlərin səbrini tarıma çəkib. Bunun nəticəsində işğalçı ölkənin 494 kəndlərindən yarısından çoxu boşalıb.

### Paşinyanın uçuruma sürüklənən yararsız konsepsiyası

Politoloqlar ölkədə yaranmış bu vəziyyətin əsas günahkarı Paşinyanın hazırkı konsepsiyasının yararsız olmasında görür. Politoloq Qabil Hüseynli bildirir ki, ümumiyyətlə Ermənistan ordusu deyilən nə ordu olub, nə də ordu sahəsində mütəxəssisi: "Məhz 2016-cı il aprel savaşı Ermənistan ordusundakı böyük qüsurları ortaya çıxardı və hakimiyyətə gələn Nikol Paşinyan da bu qüsurları etiraf etmək məcburiyyətində qaldı. Ermənistanın təhlükəsizlik konsepsiyası 2007-ci ildən bu yana dəyişdirilməyib. Yeni konsepsiyanın ana istiqamətlərini Paşinyanın yeni təyin etdiyi Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan təqdim edib".

Politoloqun sözlərinə görə, erməni cəmiyyəti müharibə və itki istəmir: "Ona görə də, Paşinyanın təlimatıyla hazırlanan təhlükəsizlik konsepsiyasının 3 ana maddəsində cəmiyyəti sakitləşdirmək üçün müharibə istisna edilir. Ancaq bunun reallaşdırılması mümkün deyil. Çünki "müharibə istəməmək" tək bir tərəfdən asılı olan məsələ deyil. Əgər qarşıdakı ordu növbəti hücum əməliyyatı planlaşdırırsa, döyüşə girməlisən. Ona görə də, Ermənistan hökumətinin böyük ümidlərlə hazırladığı yeni təhlükəsizlik konsepsiyasının işlək və uzunömürlülüyü işğal faktına son qoyulmasından və bunun əsasında Azərbaycanla sülh sazişi imzalamasından keçir. Əlbəttə ki, işğalçı ölkədə bu qəbildən sosial-iqtisadi problemləri Dağlıq Qarabağ konflikti, blokada problemi çözülmədən aradan qaldırmaq mümkün olmayacaq. Ermənilərin xaricə köçünün bir səbəbi də həlli uzanan münaqişə və müharibə vəziyyəti, orduda baş alıb gedən özbaşınalıqlardır".

Bir sıra təhlilçilərə görə, ölkə daxilində sosial-iqtisadi sahədə hələ də sanballı uğurların gözə dəyməməsi, immiqrasiya əvəzinə, emiqrasiyanın güclənməsi, son vaxtlar isə hökumətə qarşı, üstəlik, açıq etirazların baş qaldırması və ilk dəfə etirazçıların qanının tökülməsi Paşinyan iqtidarını, istər-istəməz, ictimai diqqəti daxildəki problemlərdən yayındırmaq zorunda qoyur. Ənənəvi olaraq, xarici düşmən faktorunu qabartmağa sövq edir. Burada isə "köməyə", necə deyərlər, əl altındakı "Qarabağ kartı" gəlir.

### Ermənistan hakimiyyətində aqressiv ritorika

Ermənistan hakimiyyətinin aqressiv ritorikası ekspertlərin də diqqətindədir. Məsələn, "PolitRus" informasiya-analitik portalının rəhbəri, rusiyalı politoloq Vitali Arkov ehtimal edir ki, Nikol Paşinyanın başçılıq etdiyi indiki Ermənistan hakimiyyəti ölkədəki iqtisadi problemlər fonunda münaqişə zonasında vəziyyəti bilərəkdən kəskinləşdirə bilər. Onun sözlərinə görə, Paşinyanın sələfləri son 20 ildə Ermənistan cəmiyyətini Azərbaycan əleyhinə əhval-ruhiyyədə kökləyib. "Paşinyan hakimiyyətə gələndə, ümid var idi ki, o, Qarabağ klanı ilə əlaqəsi olmadığı və liberal yönlü insan olduğuna görə, gərginliyi azaltmaq siyasətinə başlayacaq."

V.Arkov onu deyir ki, Paşinyan və komandasının vədlərinə baxmayaraq, ölkədə sosial-iqtisadi vəziyyət getdikcə pisləşir: "Hələ orta əsrlərdən bəllidir ki, belə olan halda, öz uğursuzluqlarının səbəbini xarici düşməndə axtarmaq, bəzən isə, müharibəyə başlayaraq, iqtisadiyyatdakı problemləri müharibənin üzərinə atmaq lazımdır. Söhbət ərazilərin tədricən, əvvəlcə yeddi və ya beş rayonun qaytarılmasından gedir. Lakin biz bilirik ki, "Paşinyan layihəsi" Qərb yönümlüdür. Qərb isə Rusiya və Türkiyənin Qafqazda güclənməsini istəmir. Əgər İrəvan əraziləri qaytarsa, burada Ankaranın da xidməti olacaq".

### Erməni baş nazir Azərbaycan hesabına özünə "xilas kəməri" axtarışında

"İrəvanın bütün bəyanatları, qoşunların təmas xəttindəki təxribatları Azərbaycanı cavab tədbirlərinə sövq etməyə yönəlib. Ermənistanda isə bunu təcavüz adlandıracaqlar. İrəvana hazırda irimiqyaslı olmayan, 2016-cı ilin aprel döyüşləri tipində müharibə çox lazımdır. Ermənistan tərəfi yenidən özünü qurban elan edəcək. Paşinyan üçün isə bu, xilas variantıdır" deyə rusiyalı analitik V.Arkov əlavə edib.

Beləcə, erməni baş nazir Azərbaycan hesabına özünə "xilas kəməri" axtarır. Əslində Paşinyan və komandası da daxil olmaqla, bütövlükdə, erməni toplumunun qurtuluşu, xilası, məhz elə Azərbaycanla bağlıdır. "Böyük xilas kəməri" də Bakıdadır. Onu əldə etməyin yolu məlum: heç bir şərt irəli sürmədən yad torpaqlardan işğalçı qoşunları geri çəkmək, vaxt itirmədən qonşu Azərbaycan və Türkiyə ilə anlaşmaq. Əks-təqdirdə, heç şübhəsiz, Azərbaycan mini-müharibə ilə kifayətlənməyəcək..."

Təəssüf doğuran isə, odur ki, hələ də Nikol Paşinyan bu sahədə bir addım belə irəli gedə bilmir. "Küçə demokratı" nə yalan vədlərə, nə də populist çıxışlara son qoyur. Nəticədə, düşmən təxribatı erməni ordusunda itkilərin sayını sürətlə artırır.

Təəssüf doğuran odur ki, Ermənistanın baş naziri Paşinyan populist çıxışları və savadsız siyasi baxışları ilə, elə zənn edir ki, bu yolla nəyəsə nail ola biləcək. Bu isə, bir daha göstərir ki, düşmən ölkə Azərbaycana işğala son qoymaq üçün savaş yolundan başqa bir yol buraxmır. İndiyə qədər Azərbaycan tərəfi gözləyirdi ki, beynəlxalq qurumların təzyiqi ilə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarla bağlı öz "siyasətində", danışıqlar prosesində daha konstruktiv mövqe tutacaq. Amma, bu baş vermir. Əksinə, yeni rəhbərlik də əvvəlki rəhbərlər kimi, qeyri-konstruktiv mövqe nümayiş etdirir, təxribatlara əl atır. Ona görə də, Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bağlı öz qətiyyətini və ciddiliyini ortaya qoyaraq, bir daha xəbərdarlığını edir.

### Artur Kazinyan: "Paşinyanın addımları onun siyasətdə hələ çox naşı olduğunu göstərir"

Erməni ekspert Artur Kazinyan da bildirir ki, Paşinyanın addımları Qarabağ məsələsində kövrək sülhü təhlükə altında qoyub və savaş istənilən an başlana bilər: "Paşinyanın addımları onun siyasətdə hələ çox naşı olduğunu göstərir və təəssüf ki, belə vəziyyətdə Qarabağ savaşı yenidən təkrarlana bilər. Amma ötən əsrin 90-cı illərindən fərqli olaraq, indi vəziyyət bizim lehimizə deyil. İstər hərbi, istərsə də diplomatiya sahəsində. Azərbaycan bölgədə mövqelərini xeyli gücləndirib. Üstəlik, Rusiya və Türkiyə də Azərbaycanın yanındadır. Ermənistan isə tək qalıb və bu durumda Qarabağ müharibəsinin yenilənməsi bizə müsbət nəsə vəd etmir".

Erməni mətbuatının yazdığına görə, ölkədə yaranmış ağır durumla bağlı erməni ekspertləri bildirirlər ki, hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: "Paşinyan min-bir hiylə ilə hördüyü corabın toruna özü düşüb. Ölkə fəlakət durumundadır. Repressiv şərait, ağır sosial-iqtisadi durum üzündən ölkəni tərk edənlərin sayı sürətlə artır".

### Modest Kolerov: "Nikol Paşinyan ən axmaq və sadəlövh siyasi proseslərdən xəbərsiz küçə "demokratıdır"

Siyasi politoloq Modest Kolerov deyib ki, N.Paşinyan "ən axmaq və sadəlövh siyasi proseslərdən xəbərsiz küçə "demokratıdır". Paşinyan açıqcasına, utanmadan, heç nə gizlətmədən bütün məhkəmə sistemini təzyiq edir, öz şəxsi problemlərinə görə, bütün məhkəmə sistemini dəyişmək məqsədi güdür". O, fikirlərinə davam edərək bildirib ki, bununla N.Paşinyan "siyasi motivi olan məhkəmə diktaturası" yaradır və R.Koçaryanla hesablaşmaq istəyir. Baş verən proseslər də bunu sübut edir. Baxın, N.Paşinyan R.Koçaryanın həbsdən buraxılması prosesinə mane olmur, lakin ondan dərhal sonra hay-küy salır. Belə görünür ki, bu prosesi, ona görə təşkil ediblər ki, Ermənistanda ikinci siyasi dalğa yaransın. Bununla N.Paşinyan, birincisi, növbəti dəfə sosial-iqtisadi çətinliklərin günahını əvvəlki iqtidarın boynuna qoymağa çalışır. Yəni demək istəyir ki, "baxın, mən ədalətli olmağa, xalq üçün işləməyə çalışıram, islahatların aparılmasına cəhd edirəm, ancaq bu lənətə gəlmiş əvvəlki iqtidarlar bütün planları pozur. İkincisi, Dağlıq Qarabağ məsələsinin Ermənistanın xeyrinə həll edilməsinə mane olan əvvəlki iqtidarın "DQR"-dəki adamlarıdır. Onlar xəyanətkardırlar. Çünki torpaqların bir hissəsini Azərbaycana güzəşt etmək istəyirlər. Deməli, münaqişə hazırda Dağlıq Qarabağda oturan separatçılar vəzifələrindən gedəndən sonra həll edilə bilər.

Üçüncüsü, N.Paşinyan göstərmək istəyir ki, Ermənistanda islahatların genişləndirilməsində maraqlıdır. İndi N.Paşinyan bu görüntünü yaradıb, Avropadan pul qoparmağa cəhd edir. Lakin həmişə olduğu kimi, əli ətəyindən uzun gəlir və istəkləri daşa dəyir.".

Politoloq bildirir ki, Ermənistanda hansısa islahatların və ya inqilabın "ikinci və ən əsas mərhələsi"ndən söhbət gedə bilməz: "Məhz yaranmış bu situasiya onu sübut edir ki, artıq erməni cəmiyyətində qütbləşmə dərinləşir. Biz o dərəcədə hər şeyə şübhə etməyə və dəyərsizləşdirməyə vərdiş etmişik ki, istənilən sağlam düşüncə xəncər-bıçaqla qarşılanır və şübhə altına alınır".

Bütün bu aspektlərin yekunu belədir: erməni lider hara gedirsə, özü ilə ancaq söz, boş vədlər, saxta tarix aparır və oradan da ancaq söz alıb qayıdır. Onu müasir erməni siyasətinin "söz taciri" adlandırmaq olar. Yeri gəlmişkən, görünür, bu xüsusiyyət ona əcdadlarından, yəni özündən əvvəlki Ermənistan rəhbərlərindən qalıb.

Bu yerdə rusiyalı ekspert Aleksandr Duqinin Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının boşaldılması öncə, "beş rəqəmi" ilə bağlı dediklərini bir daha vurğulamaq yerinə düşər. Aleksandr Duqinin işğal olunan beş rayonun boşaltmasının zəruri olduğunu bildirib: "Bundan sonra nizamlama prosesinin növbəti mərhələlərinə keçmək olar"

Göründüyü kimi, Ermənistanda hərcmərcliyin, uçuruma gedən yolun münaqişənin həll edilməməsinin başlıca səbəbkarı Paşinyan kimi küçə "demokratlarının" siyasi savadsızlığı və sadə bir həqiqəti dərk edə bilməməsi ilə birbaşa bağlıdır. Bunu dərk etmək çətin olmasa da, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil böyük güclərin, erməni lobbisinin əlində oyuncaqdır. Qondarma gedişlər etməklə, itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır. Lakin anlamalıdır ki, ən əsas çıxış yolu işğalçı erməni silahlılarını Azərbaycan ərazilərindən çıxarmalıdırlar.

**A.SƏMƏDOVA**

# “KÖSTƏBƏK YOUTUBERLƏR”İN BAXIŞ VƏ “LİKE” PROBLEMİ...

## YAXUD XALQ ONLARA NİYƏ BAXMIR VƏ BƏYƏNMİR?

***Azərbaycanda özlərinə müxalifət donu biçdirib, saxta arayışları və məhkəmə qərarlarını əllərində bayraq etməklə, yaxud xarici kəşfiyyat qurumlarının nümayəndələri ilə şübhəli əlaqələrə girərək ABŞ-da, Fransada, Almaniyada oturum alan Sevinc Osmanqızı, Qənimət Zahid, Natiq Ədilov, Tural Sadıqlı, Məhəmməd Mirzəli kimi “köstəbək youtuberlər” imza atdıqları “müqavilələrin” şərtlərini və öhdəlikləri heç cür yerinə yetirə bilmirlər. Onlara verilən qrantların qarşılığında Azərbaycan ictimai rəyinə təsir etmək, insanlarda antihakimiyyət əhval-ruhiyyəsi formalaşdırmaq cəhdləri nəticə vermir, əksinə, “youtube” layihələri getdikcə iflasa uğrayır. Belə fiaskonun səbəbi onların savadsızlığı və bacarıqsızlığı ilə yanaşı, xalqın münasibəti və mövqeyidir.***







Vətəndaşlarımızın “Osmanqızı”, “Azərbaycan saatı”, “Azadlıq qəzeti”, “Azad söz”, “Made in Azerbaijan” kimi “youtube” kanallarını izləməməsi, orada aparılan müzakirələrəetinasız yanaşması, xüsusilə də, çoxsaylı sosial şəbəkə istifadəçilərinin verilişləri kütləvi şəkildə “dislike” etməsi (bəyənməməsi) fiaskonu labüdləşdirib...

Qısa monitorinq aparmaq kifayət edər ki, həmin kanalların necə rəzil duruma düşdüklərini görəsən. Onların vəziyyəti o qədər pisdir ki, hətta canlı yayım efirlərinə əvvəlcədən öyrədilmiş şəxslərin zəng vurmalarını belə təşkil etməyə məcbur olurlar. Dəfələrlə şahidi omuşuq ki, Qənimət Zahidin və Osmanqızının troll-moderatorları “canlı çatda” efirə zəng üçün yalvarırlar. Lakin zəng edənlər də, adətən, o qədər savadsız olurlar ki, özlərini ifşa edirlər. Məsələn, bir neçə gün əvvəl “Azərbaycan saatı” kanalında Əli Kərimlidən müsahibə alan Qənimət Zahid əvvəlcədən təşkil olunmuş zəngi efirə qoşduqdan sonra peşman oldu. Çünki öyrədilmiş cəbhəçi troll intellektual baxımdan o qədər zəif idi ki, bilmədən canlı efirdə Əli Kərimlinin arayış və vəsiqə alverini ifşa etdi. Həmin şəxs dedi ki, bu günə qədər Avropaya getmək üçün ona 500 nəfər müraciət edib. Onlardan biri sənədləri yığmaq üçün 10 min manat xərcləyib. Təkcə AXCP-nin vəsiqəsini almaq üçün isə 3 min manat xərc çəkib. Cəbhəçinin sözlərinə görə, 10 min manat xərc çəkilsə də, 3 min manata AXCP-nin vəsiqəsi alınsa da, bütün sənədlərin keçərli olması üçün həmin şəxsin Əli Kərimli ilə mütləq şəkli olmalıdır...

Əlbəttə, özünüifşa məqamları tək bu misalla bitmir. Əsas problem ondan ibarətdir ki, “Osmanqızı”, “Azərbaycan saatı”, “Azadlıq qəzeti”, “Azad söz”, “Made in Azerbaijan” kimi “youtube” kanalları artıq saxta reytinq naminə çalışırlar. Şər-böhtan xarakterli, reallıqla uzlaşmayan mövzuları “xüsusi təlim keçmiş ekspertlərlə” müzakirə edir, amma yenə də lazımi effekt əldə edə bilmirlər. Çünki bütün fəaliyyət elə başdan saxtakarlıq üzərində qurulub.

Məsələn, “Osmanqızı” kanalının 113 min “abunəçisi - izləyicisi” olsa da, canlı yayımlar zamanı həmin rəqəmin heç 1 faizi belə verilişi izləmir. Təqribi hesablasaq, “Osmanqızı” kanalının 1 faiz izləyicisi 1130 nəfər edir. Lakin şəkildən də göründüyü kimi, canlı yayım efirini 761 nəfər izləyir. Bu da, 0,6 faiz deməkdir. Məsələ bununla bitmir. Verilişi bəyənənlərin sayı da, bir qayda olaraq, həddən artıq az olur. Özünüz də görürsünüz ki, “Osmanqızı” kanalındakı canlı efiri “like” edənlərin sayı (581) dislike edənlərdən (947) demək olar ki, 2 dəfə azdır.




Adıçəkilən kanalın baş admini həmin Sevinc Osmanqızıdır ki, Bakıda ailəsi ola-ola ABŞ xüsusi xidmət orqanlarının əməkdaşı ilə “ciddi” münasibətlər qurub, sonra isə onun köməkliyi ilə ABŞ-a qaçıb. Orada Sevinc Osmanqızına Azərbaycan dövləti və xalqı əleyhinə işlərin aparılması üçün qrant xətti açılıb, Floridanın ən bahalı məkanında 300 min dollarlıq mənzil də “hədiyyə edilib”...

Yaxud götürək Qənimət Zahidin “Azərbaycan saatı” kanalını. Bu, həmin Qənimət Zahiddir ki, Azərbaycanda olarkən “Azadlıq qəzeti”nin baş redaktoru, Əli Kərimlinin kassirlərindən biri idi. Bu, həmin Qənimət Zahiddir ki, xarici donorlar və KİVDF tərəfindən ayrılmış milyonlarla dollar və yüz minlərlə manat vəsaiti Əli Kərimli ilə bölüşdürmüş, qəzetin əməkdaşlarını isə qış vaxtı cırıq ayaqqabı ilə işə gəlməyə məcbur etmişdi. Qəzetin kollektivinin haqqı olan o pulları “3 Palma” saunasında xərcləyərkən, rəzil duruma düşmüş Qənimət Zahid bu gün yenə rəzillik içərisindədir...




Demək, onun kanalının 137 min izləyicisi var. Lakin canlı efiri “izləyənlərin” sayı cəmi 0,4 faizdir, yəni 501 nəfər. Təqdim olunan şəkildən aydın görünür ki, verişili bəyənənlərin sayı cəmi 649 nəfərdir, bəyənməyənlər isə 1600 nəfərdən çoxdur. Arada olan 1000 nəfərlik fərq bir daha sübut edir ki, Qənimət Zahidin “youtube” kanalı bəyənilmir, qəbul edilmir. Vəziyyət o həddə çatıb ki, Q.Zahid bu biabırçılığın qarşısını almaq üçün bəzən “like” və “dislike” funksiyalarını bağlamağa məcbur olur...

Yuxarıda adları çəkilənlərdən heç də fərqlənməyən “youtube” kanalından biri də əxlaqsız davranışlarına görə ölkədən qaçmış Tural Sadıqlının işlətdiyi “Azad söz”dür. Bu, həmin Tural Sadıqlıdır ki, Əli Kərimlinin “tələbəsi” olan Fatimə Mövlamlıdan Avropa oturum almasına “kömək göstərmək” adı ilə 15 min dollar almışdı, “dostu” Məhəmməd Mirzəli ilə qrant savaşı aparırdı. 80 min avro qranta görə, bir-birini ifşa etmiş Məhəmməd-Tural cütlüyü hələ o zamandan əsl məqsəd və məramlarını büruzə vermişdilər...




“Azad söz” kanalının “izləyicilərinin” sayı 148 min nəfərdir. Kanalın “izləyici” sayı yuxarıdakı iki kanaldan çox olsa da, onlardan daha zəifdir. Çünki şəkildən də görünür ki, “Azad söz”ün canlı efirini izləyənlərin sayı cəmi 493 nəfərdir. Yəni ümumi “izləyici” sayının cəmi, 0.3 faizi canlı efirə qoşulub. Verilişi bəyənənlərin də sayı aşağıdır - cəmi 471 nəfər. Canlı efiri rədd edənlərin, bəyənməyənlərin sayı isə “like” edənlərdən çoxdur.

Rəzil durumda olan kanallardan biri də “Azadlıq qəzeti”nin “youtube” kanalıdır. Bu kanalın admini Əli Kərimlinin həmkəndlisi, AXCP mətbuat xidmətinin rəhbəri Natiq Ədilovdur. O da, Qənimət Zahid və Tural Sadıqlı kimi, böyük bir rəzalətdən sonra AXCP sədrindən aldığı arayışla Fransada yerləşib.

Bu gün onun işlətdiyi “Azadlıq qəzeti” kanalının cəmi 52 min nəfər “izləyicisi” var. Canlı yayımlar zamanı, ümumiyyətlə, biabırçılıq olur. Birincisi, Natiq Ədilov çox nadir hallarda canlı yayım təşkil edə bilir. Çünki bunun üçün intellekt və kreativlik lazımdır. İkincisi, N.Ədilov əvvəlcədən çəkilmiş, montaj olunmuş videoları “premyera” kimi yerləşdirməklə baş aldatmağa çalışır. Amma nə fayda...

Onun “premyera”larına baxanların sayı çox nadir hallarda 100 nəfəri keçir. Elə təqdim etdiyimiz şəkildən də görürsünüz ki, efirə baxanlar cəmi 51, “like” edənlər 137, “dislike” edənlər isə 745 nəfərdir. Yəni aydın olur ki, kanalın efirinə 0,1 faiz “izləyici” baxır, “like” edənlərin sayı isə, bəyənməyənlərin sayından 5-6 dəfə azdır...

Bu gün özlərini “müxalifət” adlandırıb guya “haqq-ədalət naminə” fəaliyyət göstərənlərin real durumu təsvir edildiyi kimidir. Böyük əksəriyyət onları qəbul etmir. Onların fikirləri, “feyk” mövzuları insanları maraqlandırmır. Dünyada baş verən geosiyasi və geoiqtisadi proseslərin təhlili prizmasında onların qərəzli çıxışları, “dəvədən fil düzəltmək” cəhdləri çox rəzil və cılız görünür. Elə bu səbəbdən də, Azərbaycanda onları izləyənlərin və dəstəkləyənlərin sayı abunəçilərin 1 faizini ötmür. Sual edə bilərsiniz ki, 1 faiz izləyiciləri yoxdursa, 100 minlik izləyici sayı haradandır? Çox sadə: Osmanqızının canlı efirdə etiraf etdiyi kimi, “youtube”nin və digər texniki dəstək saytlarının pullu xidmətlərindən istifadə edərək, izləyici və “like” sayını süni şəkildə artırırlar...

İndi bildinizmi radikal müxalifətin namizədləri nə üçün seçkilərdə 3 faizlik baryeri aşa bilmirlər? Onlara məsləhətimiz budur ki, əgər güzgü sizi əyri göstərirsə, güzgünü sındırmayın, özünüzü düzəldin...

***Ramil Vəlibəyov,***
***YAP Nizami rayon təşkilatı GB sədrinin müavini, siyasi elmlər***
***üzrə fəlsəfə doktoru***

# Köhnə təfəkkürlü müxalifətin yeni rüsvayçılığı

## *Xalqdan ayrı düşüb, anti-Azərbaycan dairələrin qazanının dibini yalayan dağıdıcı müxalifəti növbəti uğursuzluq gözləyir*

***25 ildən artıqdır ki, siyasət meydanında var-gəl etsələr də, fakt budur ki, xalqdan ayrı düşüb, anti-Azərbaycan dairələrinin qazanının dibini yalayan dağıdıcı müxalifət köhnə təfəkküründə və düşüncəsində qalmaqdadır. Yəni müxalifət hələ də müasir dövrün yenilikləri və qlobal dəyişiklikləri ilə ayaqlaşa bilmir. Hələ də meydan təfəkkürü ilə yaşamaqda və fəaliyyət göstərməkdədir. Bu da, təbii olaraq, müxalifətin siyasi proseslərdə uğursuzluğa düçar olmasını şərtləndirən fakta çevrilir. SSRİ-nin dağılmasını şərtləndirən kodekslə məsləni müqayisə etsək, fikrimizin əsaslı ola biləcəyini demək olar. Yuxarılar aşağıların, aşağılar isə yuxarıların təkliflərini, istək və tələblərini qəbul edə bilmədiklərindən, SSRİ dağıldı. Eynilə, Azərbaycan müxalifətində də yuxarılarla aşağılar arasında ciddi qarşıdurmalar mövcuddur.***



Bu baxımdan, aşağılardan başlayan istefalar yuxarılara doğru adlamaqdadır. Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov müxalifətin uğursuzluğa düçar olmasının başlıca səbəbini, partiya sədrlərinin separatçı mövqe tutmaları ilə əlaqələndirib. Bildirib ki, meydan hərəkatından başlayaraq həmişə separatçı mövqe tutmuş insanlar bir təşkilatdan çıxıb o birinə üzv olur və ya ayrı-ayrı təşkilatlar yaradırdılar. "Xalq hərəkatı", "Milli Şura" kimi hər cür bər-bəzəkli adlar tapırlar, ancaq hamısı eynidir, burada kənar adamlar yoxdur. Siyavuş Novruzovun sözlərinə görə, müxalifət düşərgəsində digər partiyalardan uzaqlaşdırılmış, çıxarılmış, qovulmuş, yaxud köhnə təfəkkürdən təmizlənmiş insanlar da mövcuddur: "Bəzilərinin 70 yaşı var, lakin hələ də öz yollarını tapa, nə istədiklərini özləri üçün aydın edə bilməyiblər. Bu insanlar arasında kəskin şəkildə fikir ayrılığı, qarşıdurma var və hər birində ciddi şəkildə mənəm-mənəmlik, özündənrazılıq düşüncəsi yaranıb. Yaxşı ki, onların bu hərəkətləri göstərilir və insanlar vaxtilə Azərbaycana kimlərin rəhbərlik etdiyini və yenidən rəhbərlik etmək arzusunda olduğunu bir daha görürlər".

Birmənalı şəkildə demək olar ki, müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin böyük əksəriyyəti siyasətə gəlir mənbəyi kimi baxırlar. Xüsusilə, AXCP və Müsavat funksionerləri xarici qüvvələrlə iş birliyinə getməklə, onlardan yardımlar alırlar. Məhz buna görə də, AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Arif Hacılının, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlinin, Müsavatın keçmiş başqanı İsa Qəmbərin, AXP-nin sədri Pənah Hüseynin və digərlərinin övladları xarici ölkələrin nüfuzlu universitetlərində təhsil alır və bahalı evlərdə yaşayırlar. Ancaq siyasətdə uğur qazana bilməyiblər. Çünki müxalifət başbilənlərindən birinin, bir zaman dediyi kimi, "pul qoyub, pul götürmək olar, amma pul qoyub, siyasətdə uğur əldə etmək olmaz". Belələri haqqında çoxsaylı faktlar-sübutlar göstərmək olar. AXCP sədri Ə.Kərimlinin, Müsavat başqanı A.Hacılının, Müsavatın keçmiş başqanı İ.Qəmbərin siyasi fəaliyyətlərinə nəzər yetirdikdə, hər şeyin məlum olduğunu görmək olar. Bu məxluqlar az qala yaşlarının yarısını siyasətə qurban versələr də, qazandıqları ancaq xalqın ittihamı, tənqid və iradları olub. Ağa qara demək, xalqın sevincinə və hakimiyyətin apardığı uğurlu siyasətə qərəzli yanaşmaq onların həyat tərzidir. Belələrinin yenilənməsinə ehtiyac var ki, bunun da reallaşmasına siyasi gəlir mənbəyi kimi baxan məxluqlar, heç cürə imkan verməzlər. Yalnız rayon təşkilatlarının qətiyyətinə və prinsipiallığına ehtiyac var ki, yəqin bu gözləntilər də yaxın vaxtlarda həyata keçəcək.

### Müxalif düşərgə dağılan tifaqa bənzəyir

Müxalifətdaxili mövcud ağır vəziyyəti dəyişmək üçün müxalif partiyaların rəhbərliyinə yeni simalar və yeni qüvvələr gəlir. Bu növ şəxsləri bəxtlərini, yəni şanslarını yoxlamağa cəhd göstərənlər adlandırmaq olar. Amma nə yazıqlar ki, əksər hallarda, o şəxslər şanssız olurlar, nəinki cəmiyyətdə, ümumilikdə, baş vurduqları siyasət aləmində hörmət və izzət sahibi ola bilmədiklərindən, uğursuzluğa düçar olub, kor-peşman əski mövqelərinə qayıdırlar. Meydana siyasi reallıqları düzgün dərk edən və xaricdən asılılığı olmayan yeni gənc liderlər çıxmalıdır. Lakin bugünkü reallıqda müxalifət düşərgəsində bunu görmək və ya "yeni simaları" cəmiyyətə təqdim etmək mümkün deyil. Çünki siyasi arenaya çıxan yeni simalar indiki korlanmış müxalifət funksionerlərinin cərgəsində əriyərək, sıradan çıxır və ya elə onların bir tayı olurlar. Yenilik yalnız ikinci - üçüncü tip şəxslərin başqanlığa və ya kollegial orqanlara gətirilməsi deyil, bütövlükdə, ideologiya dəyişməli, müstəqil və demokratik idarəetmə sistemi qurulmalıdır. Hazırkı müxalifət liderlərin və funksionerlərinin siyasi imici həddən artıq korlanmış durumdadır. Bir qədər əvvəl ADP, "Ümid" və "VİP" yeni dəyişikliklərə can atdılar. Hətta bu istiqamətdə müzakirələr də apardılar. Ancaq bu partiya sədrləri arasında aparılan müzakirələrin nəticəsiz qalması, düşərgə daxilində proseslərin istiqamətini dəyişdirib. Müxalifət qazanının dibini yalayan ekspertlər də, etiraf edirlər ki, ciddi iradə ortaya qoyub, dəyişikliklərə gedilməsə, müxalifət partiyaları daxilində qeyri-müəyyənliyə gətirib çıxaran anormal vəziyyət düşərgədə ciddi problemlər yaradacaq. Proseslərə əsasən, demək olar ki, hazırkı məqamda ən təlatümlü və narahat partiyalar AXCP, ADP, KAXCP və Müsavat partiyalarıdır. Müsavatda cərəyan edən hadisələr maraqlı nüanslar ortaya çıxarır. Arif Hacılının başqanlığa gətirilməsindən sonra partiya daxilində qarşıdurmalar günbəgün artmaqdadır. Partiya başqanı A.Hacılının idarəçiliyindən narazı olan qruplar açıq müstəvidə mübarizəyə başlayaraq, situasiyanı öz xeyirlərinə dəyişdirməyə çalışırlar. Bundan istifadə edən AXCP sədri Ə.Kərimli yaranmış vəziyyətdən səmərəli surətdə istifadə etməyə çalışır. Nəzərə almaq lazımdır ki, bu iki partiya arasında əzəli düşmənçilik mövcuddur. Hər iki partiya funksioneri bir-birini sıradan çıxarmaq üçün məqam gözləyib. Müsavatda baş verənlər Ə.Kərimlinin işinə yaradığından, o, bütün qüvvəsi ilə Müsavatı tamamilə sıradan çıxarmağa çalışır. Müxalifət düşərgəsində hazırda iki qütbə bölünən partiya funksionerləri arasında qarşılıqlı ittihamlar güclənməkdədir. Amma Müsavat funksionerləri AXCP-nin həmlələri qarşısından geri çəkilmək fikrində deyillər. Bu isə, mübarizənin sonrakı mərhələdə gərginləşəcəyini və partiya funksionerlərinin bir-birinə qarşı ittihamlarının sferasının genişlənəcəyindən xəbər verir.

### Müxalifət niyə meydan təfəkküründən qurtula bilmir?

Maraqlı məqam ondan ibarətdir ki, bu günə qədər müxalif düşərgədə yedək rolunda çıxış edən pariyalar üzə çıxmağa və müxtəlif şoularla diqqət mərkəzinə çevrilməyə çalışırlar. Hətta elə müxalif mövqeli fərdlər var ki, AXCP və Müsavat kimi iddialı partiyaların artıq sıradan çıxdığını gördüklərindən, "bəlkə alındı" istəyi ilə gizlincə qurultay keçirir və bir qədər sonra yeni partiyanın yarandığı barədə Mətbuat Şurasının reket elan etdiyi saytlarda və ya qəzetlərdə məlumat yayırlar. Ancaq sonradan məlum olur ki, qurultay-filan olmayıb. Sadəcə, partiya sədri elan olunan şəxsin bağ evində məclis qurulub, sağlıqlardan və pafoslu tostlardan sonra təşkilatın yaradıldığı barədə qərar verilib. Eyni zamanda, məclisin yüksək xərc hesabına başa gəldiyi nəzərə alınaraq, xərc çəkən sədr elan olunub. Amma bu, bir faktdır ki, "sədr" siyasətin nə olduğunu belə anlamır. İctimai-siyasi proseslərə məişət məsələləri kimi yanaşıb, elə o tərzdə də münasibət bildirir. Elə ilk müsahibəsində və ya açıqlamasında özünü ifşa etməklə, adını siyasətdə uğursuzluğa düçar olanların siyahısına yazır. Fikir verin "Vətəndaş və İnkişaf Partiyası"nın sədri Əli Əliyev hər gün demək olar ki, sosial şəbəkələr vasitəsi ilə şər, böhtan və dezinformasiya xarakterli məlumatlar yayır. Ancaq nə faydası, hər kəs onun boşboğazlığa yol verdiyini bildiyindən, fikirlərini rədd edirlər. Eyni münasibəti "Gələcək Azərbaycan Partiyası"nın sədri Ağasif Şakiroğlu və digərləri haqqında da söyləmək olar. Qısası, onu qeyd etmək olar ki, müxalifət düşərgəsi təlatümlü və ağır dövrünü yaşamaqdadır. Kimin meydana çıxıb nə uydurmasından və hansı cəfəng fikirləri söyləməsindən asılı olmayaq, müxalif düşərgə arzu olunmaz meydan olaraq qalmaqdadır.

**İ.ƏLİYEV**

## Dənizdə batmaq təhlükəsi ilə üzləşən 5 nəfər xilas edilib

Xəzər dənizinin Şabran rayonu Xəlilli kəndi ərazisində çimərkən boğulmaq təhlükəsi ilə üzləşən 5 nəfər xilas edilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, xilas edilən 2 azyaşlının vəziyyətləri ağır olduğundan Şabran Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. Uzunboyad kənd sakinləri 4 yaşlı Əhmədov Mikayıl Ağabəy oğlu və 12 yaşlı Zamanov İlqar Bəylər oğlu reanimasiya şöbəsində müalicə olunur. Tibbi yardım göstərilən azyaşlıların vəziyyəti normaldır.

## Şabranda qidadan zəhərlənənlərin 15 nəfəri xəstəxanaya yerləşdirilib

Şabranda qidadan zəhərlənənlərin 15 nəfəri rayon mərkəzi xəstəxanasına yerləşdirilib. Tibb müəssisəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, zəhərlənənlərdən bir nəfəri reanimasiya, qalanları isə yoluxucu xəstəliklər şöbəsində müalicə olunur. Xəstələrin mədələri yuyulub və müvafiq tibbi yardım göstərilib. Vəziyyəti yüngül olanlar ilkin tibbi müayinədən sonra evə buraxılıblar. Hazırda xəstəxanada müalicəsini davam etdirən şəxslərin vəziyyətləri sabitdir. Qeyd edək ki, son iki gündə Şabran Rayon Mərkəzi Xəstəxanasına 20 nəfərdən çox rayon sakini qida zəhərlənməsi diaqnozu ilə müraciət edib. İlkin ehtimala görə, həmin şəxslər doğum günü mərasimində yedikləri tortdan zəhərləniblər. Faktla bağlı araşdırma aparılır.

# Qurban Məmmədovun iç üzü açılır

## *İndi də separatçıların "vəkili" İsgəndər Həmidovun yatağa düşməsinə çırtma çalır*

***Bax, budur milli mənlik şüurundan, vətəndaşlıq borcuna sadiqlikdən məhrum olan alçaq xislətli, separatçıların "vəkili", xəyanətkar, "siyasi mühacir" Qurban Məmmədovun iç üzü. Əslində, Q.Məmmədovun məqsədi "Azərbaycan Xalq Hərəkatı"na "liderlik" iddiası ilə sabiq daxili işlər naziri İsgəndər Həmidovla "qoç döyüşünə" çıxmaq istəyirdi. İş elə gətirdi ki, Q.Məmmədov İ.Həmidovu yaxalayınca, xəstəlik daha tez yaxaladı. Elə bil, bununla da, İ.Həmidov həyata keçirmək istədiyi "arzusuna" qovuşa bilmədi. Xəstəlik onu heç ayağa qalxmağa da imkan vermədi. Bu xəbərdən sonra separatçıların "vəkili" çırtma çalır. Ancaq bilmir ki, hər anın bir hökmü var.***




İndi özünü "ən layiqli lider" saydığını bildirən və uzun müddətdir ki, ermənipərəst qüvvələrin dəyirmanına su tökməklə məşğul olan bu satqın və xəyanətkar "vəkilin" son vaxtlarda sosial şəbəkələrdə daha fəal olmasının da səbəbi bəlli olub. Deməli, əlinə fürsət düşüb. Özü də Azərbaycanda reallaşdırılan inqilabi islahatların keçirilməsi, əldə olunan uğurlu nəticələr prosesi zamanı satqın "siyasi mühacir" Q.Məmmədovun məqsədi də "AXH"-yə "lider" olmaqla, ölkədə siyasi sabitliyi pozmaqdır. Ancaq satqın Q.Məmmədov anlamır ki, sosial şəbəkə vasitəsi ilə ölkəmizin əleyhinə apardığı "qara piar" kampaniyasının rəngini gündən-günə nə qədər tündləşdirsə də, heç nəyə nail ola bilməyəcək.

### "Vəkil"likdən başqa hər cür alçaqlıq edən Q.Məmmədovun quduzluğu

Deyir, itin quduzlaşması düzələn deyil. Bir də, atalar yaxşı deyib ki, bələdçisi qarğa olanın dimdiyi həmişə zibillikdə olar. Təbii ki, ölkə başçısı dəfələrlə anti-Azərbaycan qüvvələrə qarşı siyasi iradəsini qəti şəkildə ortaya qoyub. Hətta bu qüvvələrə qarşı Prezident Administrasiyasının İctimai-siyasi məsələlər üzrə şöbəsinin müdiri Əli Həsənovun da davamlı yazıları göstərir ki, bu qüvvələr iflasa uğramış bir zümrəni təmsil edir. Əli Həsənovun təbirincə desək, xaricdən maliyyələşən və idarə olunan "iaşə müxalifəti", nə qədər cəhd etsə də, ölkəmizin suverenliyinə xələl gətirə bilməz. Ölkə başçısı İlham Əliyevin siyasi iradəsi qarşısında isə bütün antimilli qüvvələr məğlubiyyətə məhkumdurlar.

### Hacı Əbdüldən sensassion açıqlamalar

"Tövbə" cəmiyyətinin sədri Hacı Əbdül son günlər separatçı satqın "vəkil" Q.Məmmədovun "liderlik" iddiasına düşməsinə əsəbləşərək bildirib ki, yaxşı olardı ki, hər iki qardaş kim olduqlarını açıqlasınlar: "Onlarda üz var. Ancaq insafən, hər ikisinin üzü padoşdur. ADP-nin sədri Sərdar Cəlaloğlu və hazırda İngiltərədə sığınacaq alan satqın qardaşı Q.Məmmədov daima xarici dövlətlərin agenti olub, Sərdar Cəlaloğlu da şeytana qulluq edən adam olub. O özünə aid olmayan və bilmədiyi məsələlərə başını soxur. Onun bu cür hərəkətləri camaatı da çox narahat edir. Adını "müstəqil siyasətçi" qoyub, amma yüz yerə işləyir. S.Cəlaloğlunun heç partiya sədri səviyyəsində elektoratı yoxdur. Ona xüsusi vəzifə verilib. Bu vəzifə də müxalifəti parçalamaqdır. S.Cəlaloğlunu yalnız dırnaqarası müxalifət hesab etmək olar. O, əsl müxalifət deyil". Hacı Əbdül, ümumiyyətlə, Azərbaycanda əsl müxalifətin olmadığını deyir: "Müxalifətçiyəm" deyənlərin hamısı satqın, əxlaqsız və qrant alverçiləridir. Satırlar, satılırlar. S.Cəlaloğlu ilə Q.Məmmədov bir bezin qırağıdır. Bir qardaş xaricdəki müxalifətə, bir qardaş isə ölkədəki müxalifətə nəzarət etmək üçün fəaliyyət göstərir. Buna görə onlara vəsait verilir. Bunlar müstəqil adamlar deyil, tapşırıq qullarıdır".

Cəmiyyətimizin yaxşı tanıdığı bu "hüquqşünas" bütün etik-mənəvi dəyərləri tapdalayaraq, sərhədləri aşaraq ölkəsinə, millətinə, respublikamızın rəhbərliyinə, dövlət adamlarına şər-böhtan, təhqir yağdıran, adını azərbaycanlı qoyaraq erməni dəyirmanına su tökən məlum başıpozuq dəstənin üzvlərini hər vəchlə müdafiə etməklə, əslində, öz simasını, daha doğrusu, simasızlığını bir daha ortaya qoyanlardır. Vətən əxlaqından, torpaq təəssübündən çox-çox uzaq olan bu xəyanətkar qrant parazitlərini özünün "Azəri fredoom" "televiziyasına" çıxararaq, uzun-uzadı mükalimələr qurması, debatlar, dialoqlar təşkil etməsi "əzəmətli vəkil" Q.Məmmədovun və onun "Azəri fredoom"unun anti-Azərbaycan dairələrin və erməni lobbisinin ölkəmizin əleyhinə yönələn yeni və məkrli bir layihəsi olduğunu tam çılpaqlığı ilə ortaya qoyur. Avropanın müxtəlif ölkələrində "siyasi mühacir" adı ilə məskunlaşaraq məişət rahatlığı, kamfort həyat tərzi naminə bütün ali dəyərləri tapdalayaraq, öz ölkəsinə və xalqına xəyanət edən, bu gün, nəinki regionda, hətta bütün dünyada sülh, əmin-amanlıq və sabitlik adası olan ölkəmizi uzunmüddətli xaosa, vətəndaş qarşıdurmasına sürükləmək istəyən dairələrin maşasına çevrilən, müəyyən xarici xidmət orqanlarının tələsinə düşən həmin "sapı özümüzdən olan baltalarla" isti münasibətləri, onlara haqq qazandırması, hətta o marginallara "vəkillik" və "ağsaqqallıq" etməsi ağı qaradan, xeyiri şərdən ayırmağı yaxşı bacaran cəmiyyətimiz tərəfindən nifrət və ikrah hissi ilə qarşılanır. Və şübhəsiz, özünü cəmiyyətə milli-azadlıq hərəkatının fəallarından biri kimi, eləcə də, təcrübəli vəkil olaraq təqdim edən Q.Məmmədov bilməlidir ki, qaranlıq fəaliyyətinin qaranlıq sonu iflasa məhkumdur.

***R.HÜSEYNOVA***



# "Media Klubu", yoxsa qrantxana mərkəzi?

## *Yaxud Soros uşaqlarının yenidən fəallaşmaları ictimai rəydə hansı düşüncələri formalaşdırır?*

İctimai rəyə heç bir təsir qüvvəsi olmayan, əksinə, getgedə fəaliyyətlərini bütün çılpaqlıqları ilə ortaya qoyan "Media Klubu" adlı dərnək üzvlərinin pərdəarxası məqamları bəlli olmaqdadır. Əslində, Azərbaycanda yaşayıb bu ölkənin havasını udan, çörəyini yeyib - suyunu içən qələmbazlar yığnağının yedikləri qazana tüpürmələri təəccüb doğurmur. Bələlərinin xəmirlərinin harada, necə, hansı üsulla yoğrulması məlum olmadığı üçün onlardan hər cür xəyanətləri, riyakarlıqları, mənəviyyatsızlıqları gözləmək olar. Xüsusilə, adıçəkilən dərnəyin "mənəm-mənəm" deyib, ortalıqda var-gəl edənləri, məhz həmin xislətli ünsürlərdən ibarətdirlər. Onların xarici ölkələrdə fəaliyyət göstərən müxtəlif media və insan hüquqları təşkilatları ilə təmaslardan başlayaraq, ta Sorosa qədər bağlılıqları da, bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaradır. Zaman-zaman əldə edilən faktlar və dəlillər də belə düşünməyə əsas vermirmi? Yaxud sözügedən ünsürlərin erməni lobbisinin anti-Azərbaycan piarında özəl yer alıb, digər təşkilatlarla yanaşı, həm də bu lobbinin sifariş və tapşırıqlarını həyata keçirmək cəhdləri barələrində formalaşan ictimai rəyə, zəmin yaratmırmı ki, onlar bu xalqın və bu dövlətin düşmənləridirlər?

Qudurğan Qulu Məhərrəmli, dələduz Mehman Əliyev, işi-gücü bəlli olmayan Elçin Şıxlı, qrantyeyən Arif Əliyev, "qazan qaynadan" Əvəz Zeynallı, ortada gedib-gələn Rövşən Hacıbəyli...

Misal üçün, özünü "jurnalist" adlandırıb, bu cameəyə təhqirlər yağdıran Qulu Məhərrəmlinin öz uğursuzluqlarını hakimiyyət dairələrinin üstünə atmasına nə ad vermək olar? Halbuki o uzun illər hakimiyyətin əsas tribunası olan AzTV-də yumşaq desək, "at oynadıb". Lakin öz səhvləri, günahları, harınlığı və qudurğanlığı səbəbindən öz qələmi ilə hər şeyin üstündən xətt çəkib. İndi də sosial şəbəkələrdə dövlətinə, xalqına xidmət göstərən jurnalist ordusuna meydan oxuyur, söyüş söyür, daxilindəki zəifliyini, cılızlığını ortalığa çıxarır. Ya da götürək Azərbaycan əleyhdarlarının xeyir-duası ilə yaradılan "Milli Şura"nın ictimaiyyətlə əlaqələr komissiyasının sədri olan, maliyyə dələduzluğu ilə tanınan Mehman Əliyevi, "Ayna-Zerkalo" qəzeti ilə tanınan, lakin işigücü bəlli olmayan Elçin Şıxlını, qrant layihələri üzrə "məharətli icraçı" olan -"Yeni nəsil"çi Arif Əliyevi, hansı yuvanın quşu olduğu yaxşı görünən Rövşən Hacıbəylini, orada-burada "qazan qaynadan" Əvəz Zeynallını və digərlərini. Bu qələmbazlar haqqında ayrı-ayrılıqda o qədər çox faktlar, dəlillər, sübutlar var ki, onların hər biri haqqında yazsaq, sadəcə, buna vaxt, zaman yetməz.

### USAİD-in gizli qrant layihəsindən yeyilən 2,4 milyon dolları hanı?

Bir müddət əvvəl, məlum olmuşdu ki, 2014-cü ildə USAİD-ın Azərbaycanda "müstəqil medianın inkişafı üçün" 2,4 milyon dollar həcmində qrant ayırmışdı və məsələ həm də ondadır ki, həmin qrant layihəsi gizli şəkildə, ölkə ictimaiyyətindən bixəbər, daha dəqiq desək, elansız-filansız təşkil olunmuşdu. Çünki heç bir mətbu orqanların Ü iqtidarlı-müxalifətli belə bir qrantdan məlumatı yox idi. Niyə, əcəba? Səbəbi nə idi? Burada da bir sıra faktorlar dayanır. Həmin fakt barədə jurnalist Taleh Şahsuvarlının da bir xatırlatmasını misal gətirmək yerinə düşərdi. SİTAT: "Pullar İREX-ə ötürüləcəkdi. Aparılan araşdırmalar göstərdi ki, bu barədə öncədən razılaşma əldə edilib və məhz bu səbəbdən, layihə məxfi saxlanır. Xatırlayıram ki, baş redaktor olaraq, mənim tapşırığımla aparılan jurnalist araşdırması çərçivəsində İREX-ə informasiya sorğusu verilmişdi. İREX-in nümayəndəsi Ələsgər Məmmədli informasiya sorğusuna yazılı cavab göndərdi. Həmin cavabda heç bir sualımıza aydınlıq gətirilməmişdi və belə çıxırdı ki, ictimai vəsaiti sorğulamaqda qəbahətə yol vermişik".

### "Media Klubu" adlı dərnəyin qələmbazları bu həqiqəti dərk etmək məcburiyyətindədirlər

Bax, buradan da görünən budur ki, erməni lobbisinin və bu lobbi ilə sıx təmaslarda olan Soros fondunun, habelə, "Freedom House", "Amnesty İnternational" və "Human Rights Watch" kimi təşkilatların əlaltılarına çevrilən "Media Klubu"nun hazırkı qələmbazları, sözün həqiqi mənasında, fırıldaqçılıqla məşğuldurlar, üstəlik, onların Azərbaycan mediasının uğurlarına kölgə salmaq cəhdləri bütün vaxtlarda olub. Bu xəyanətkarlar öz çirkin əməlləri, məkrli planları ilə bir dahaa göstərdilər ki, onların məqsədləri ölkəmizin imicini korlamaq, şər-böhtan, qrantxanaa mərkəzi olan müxtəlif "media klublarında" birləşərək,a ermənipərəst dairələrin və anti-Azərbaycan qüvvələrin sifarişlərini yerinə yetirməkdir. Lakin bu qələmbazların bütün cəhdləri yalnız iflasa və ondan da betərinə doğru yuvarlanır, hətta dərəaşağı quyuya qədər. Ona görə də, müstəqil və inkişaf edən Azərbaycan mətbuatına kölgə salmaq onlara heç vaxt, heç zaman müyəssər olmayacaq. Hətta cəhdlərini artırsalar belə, ifşaları daha da çoxalacaq, sağlam düşüncəli media mənsubları onları bu cameədə görməməkdə davam edəcəklər. "Media Klubu" adlı dərnəyin qələmbazları bu həqiqəti dərk etmək məcburiyyətindədirlər.

***Rövşən RƏSULOV***

# İnsan hüquqları və işgəncənin nəticələri

İşgəncənin nəticələri insanlar və cəmiyyət üçün nə ola bilər?

İşgəncənin nəticələrini 3 yerə bölmək olar:

1.fiziki
2.psixi
3.sosial

İşgəncənin fiziki nəticələrinə səthi və dərin zədələr, qançırlar, hematomalar, kəllə-beyin travmaları,orqanik disfunksiya, infeksiyalar, bədənin müxtəlif hissələrinin şikəstliyi, üzün eybəcər hala salınması, ruhi-bədən xəstəlikləri və sair daxildir.

İşgəncənin psixi nəticələrinə gəldikdə, onlardan isə ən vacib olanlarından posttravmatik stress pozuntuları, həyəcan, ruh düşkünlüyü, yuxu pozuntuları, xroniki ağrılar (əzələlərin, sümüklərin və oynaqların), baş ağrısı, yaddaşın itirilməsi və ya pozulması, əsəb-psixi pozuntular, öz imkanlarını və ya planlarını və sairəni reallaşdırmaq imkanlarının olmaması barədə ümidsizlik, nəzarətsizlik və narahatlıq hisslərini misal göstərmək olar.




***İşgəncələrə məruz qalanların xarakteristikasına nəzər salsaq, görərik ki, işgəncə yaşlılarla müqayisədə uşaqlara və gənc adamlara daha dərin təsir göstərə bilər. Fiziki, psixi, sosial münasibətdə qadınlar kişilərdən daha zərif və həssasdırlar. Buna görə də, işgəncə qadınlar üzərində daha aşkar nəticələr buraxır. İşgəncənin təsiri uyğunlaşma problemi yaşayan uşaq və yeniyetmələrlə müqayisədə yetişkən və müxtəlif növ stress formalarına uyğunlaşmış insan üçün daha az ola bilər.***

İşgəncənin sosial nəticələri arasında daha vacibləri aşağıdakılardır:

-sosial damğalama: qurbanlar, satqın, cinayətkar, millətçi, ekstremist, xalq düşməni və sair elan edilə bilərlər. Bu damğalar qurban və onun ailəsinə qısa və uzunmüddətli mənfi təsir göstərə bilər.

-kollektivdə və iş yerində çətinliklər: qurban yaxşı işçi olsa da, işdən çıxarıla bilər və ya ona iş tapmaq çətin ola bilər.

Aydındır ki, qurbanın ailə üzvləri iş və əmək haqqının olmaması kimi problemdən ciddi şəkildə əziyyət çəkə bilərlər.

-bəzi hallarda nəticənin biri də kasıblıq və xüsusilə də, siyasi və digər repressiyalar zamanı əmlak müsadirəsi nəticəsində, yaranan sosial problemlər ola bilər.

-gündəlik fəaliyyətin pozulması: işgəncənin qurbanları və onların ailə üzvləri öz gündəlik fəaliyyətlərində çoxlu mənfi şeylərlə qarşılaşa bilərlər.

-qurbanların yaşadığı cəmiyyət onlardan imtina edə, kənar gəzə və ya onları tənqid edə bilər.

Beləliklə, təkcə çapıqlar, fiziki ağrılar və ya əlillik deyil, sosial nəticələr də daima qurbana yaşanmış travmatik hadisələri xatırladır.

İşgəncənin qurbanları çıxılmaz vəziyyətə düşə bilərlər ki, burada da, hətta əvvəllər yaşanmış travmalardan uzun müddət keçməsinə baxmayaraq, travmatik hadisələr təkrar oluna bilər və onlar da dərin həyəcan və təşvişə səbəb ola bilər.

Harada fiziki işgəncə tətbiq edilirsə, orada avtomatik olaraq, psixi işgəncə də yaranır. Beləliklə, praktiki olaraq, onları ayırmaq mümkün deyil. Lakin buna baxmayaraq, onlara ayrı-ayrılıqda baxaq. Müqayisə edildiyi zaman psixi işgəncə fiziki işgəncədən daha dağıdıcıdır. Bundan başqa, qadınlar üçün seksual işgəncələr psixi işgəncələrdən daha da ağırdır.

İşgəncələrə məruz qalanların xarakteristikasına nəzər salsaq, görərik ki, işgəncə yaşlılarla müqayisədə uşaqlara və gənc adamlara daha dərin təsir göstərə bilər. Fiziki, psixi, sosial münasibətdə qadınlar kişilərdən daha zərif və həssasdırlar.

Buna görə də, işgəncə qadınlar üzərində daha aşkar nəticələr buraxır. İşgəncənin təsiri uyğunlaşma problemi yaşayan uşaq və yeniyetmələrlə müqayisədə yetişkən və müxtəlif növ stress formalarına uyğunlaşmış insan üçün daha az ola bilər. Həyat təcrübəsi qurbana işgəncənin müxtəlif dağıdıcı təsirlərinin öhdəsindən daha yaxşı gəlməyə imkan verə bilər. Daha təminatlı təbəqələrdən olub, tam anlayış və qayğı mühitində böyüyən və heç zaman cinayətkar fəaliyyətə və ya münaqişəyə cəlb edilməyən şəxslər üçün işgəncənin nəticələri daha böyük və dərin ola bilər. Müqayisə üçün, demək olar ki, cinayətkar fəaliyyətdə təcrübəsi olan və həyatını qeyri-müəyyən və əlverişsiz şəraitdə keçirən şəxslər üçün işgəncənin nəticələri daha yüngül ola bilər. Əgər ailə üzvləri öz yaxınlarının vəziyyətini və əzablarını başa düşür və buna anlayışla yanaşırlarsa, o zaman qurban travmatik hadisələrin nəticələriini daha yüngül keçirə bilər. Əgər cəmiyyət qurbanı terrorçu, satqın və ya qatil kimi qəbul edirsə, travma və işgəncələrin nəticələri daha da ağırlaşa bilər. Qurban ətrafında baş verənlərlə əlaqədar, özünün məyusluğunu hiss edir və özünü problemin mənbəyi kimi hiss edirsə, bu işgəncənin yuxarıda qeyd edilən nəticələrinə əlavə edilən ciddi nəticələrə gətirib çıxara bilər. Digər tərəfdən, əgər o, özünü problemlərə müqavimət göstərən və mübarizə aparan şəxs kimi hiss edərsə, bu qurbana müsbət təsir göstərər.

Müalicə və reabilitasiya işgəncənin nəticələrini minimuma endirə bilər. Xüsusilə, qurban və onun ailə üzvlərinin aşkar edilməsi, həmçinin, onların müvafiq reabilitasiya proqramlarına daxil edilməsi travmanın alınmasından dərhal və ya qısa müddət sonra həyata keçirilərsə, bu zaman müalicə və reabilitasiya daha effektiv ola bilər. Müalicə və qulluq, həmçinin, sosial-psixoloji proqramların bütün növləri, eyni zamanda, başlanmalı və nizamlı, yaxşı təlim keçmiş komanda tərəfindən aparılmalıdır.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Mövcud hüquq-müdafiə vasitələri ilə yanaşı, işgəncələrə qarşı mübarizə dövlətin başlıca vəzifələrindən biri hesab olunur. Məhz buna görə də, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında işgəncənin istənilən forması qadağan olunur və onun nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlər nəzərdə tutulur.

Beynəlxalq hüquqa əsasən, dövlət vəzifəli şəxsin və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən (məsələn, polis zabitləri, polis işçiləri, hərbi qulluqçular və ya həbsxana nəzarətçiləri və s.) törədilən işgəncələrə görə cavabdehlik daşıyır. Apardığımız araşdırmalar nəticəsində, məlum olmuşdur ki, Azərbaycan qanunvericiliyində "işgəncə"nin leqal anlayışı təsbit edilməmişdir.

Fikrimizcə, işgəncə anlayışının milli qanunvericilikdə olmaması, dövlətin hər hansı şəxslər tərəfindən törədilən işgəncələrə məruz qalmış vətəndaşlarının hüquqlarının dolğun şəkildə təmin olunmasına mənfi təsir göstərir.

Beynəlxalq hüquqda işgəncənin subyekti kimi yalnız dövlətin vəzifəli şəxsləri göstərilir. Ancaq işgəncə həm də digər subyektlər (dövlət məmuru olmayan subyektlər) tərəfindən də verilə bilər. Gündəlik həyatda və məişətdə də belə hallara tez-tez rast gəlinir (məsələn, ailə münaqişələri zəminində). Bu baxımdan, düşünürük ki, işgəncə ilə bağlı qanunvericiliyin və beynəlxalq hüquqi sənədlərin təhlili və ümumiləşdirilməsi əsasında işgəncəyə aşağıdakı kimi anlayış (tərif) verilməsi məqsədəmüvafiq olardı:

İşgəncə dedikdə, hər hansı şəxsi və ya üçüncü şəxsi, iradəsi ziddinə hərəkətlər etməyə məcbur etmək, onlardan məlumat və ya etiraf almaq, cəza vermək və ya digər məqsədlərlə, yaxud istənilən xarakterli ayrı-seçkiliyə əsaslanan istənilən səbəbə görə, hər hansı şəxsə güclü fiziki və ya psixi ağrı və əzab verən istənilən hərəkət başa düşülür.

Bundan başqa, hüquq-mühafizə orqanlarının fəaliyyətində aşkarlıq prinsipinin təkmilləşdirilməsi və genişləndirilməsi, həmçinin, beynəlxalq tələblərə, Avropa Şurasının İşgəncələrin və Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftarın və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQK) standartlarına tam olaraq uyğunlaşdırılması işgəncələrin qarşısının alınmasında mühüm rol oynaya bilər.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Elizabet Teylorun avtomobili hərraca çıxarılıb



Elizabet Teylorun avtomobili Nyu-Yorkda hərraca çıxarılıb. AZƏRTAC xəbər verir ki, hərrac avqustun 6-da keçiriləcək. Aktrisanın "Rolls-Royce" markalı avtomobilinin ilkin hərrac qiyməti 2 milyon dollardır. Bozumtul yaşıl rəngli avtomobilin dam hissəsi açılıb-bağlanır. Cihaz lövhəsi Karpat qarağacından hazırlanıb. Avtomobilin qapılarında Teylorun və əri Eddi Fişerin inisialları var. Sifarişlə hazırlanan bu avtomobil Teylor-Fişer cütlüyünə 1960-cı ildə çatdırılıb.

# Daha bir Kennedi öldü...



Prezident Con Kennedinin qardaşı və ABŞ-ın sabiq Baş prokuroru Robert F. Kennedinin 22 yaşlı qız nəvəsi Sirşa Kennedi Hillin cəsədi Massaçusets ştatındakı Hyannis Port iqamətgahında tapılıb.

CNN telekanalının saytında yer alan məlumata görə, gənc qızın ölümünü Kape Kod hospitalında da təsdiq ediblər. Bəzi mənbələrin verdiyi məlumata görə, onun ölümünün səbəbi narkotik maddələrin dozadan artıq qəbul edilməsi olub. Sirşa Kennedi Hillin narkotik maddələrdən asılı olduğu və son aylar müalicə edildiyi də bildirilir. New York Times Boston Universitetinin məzunu olan Sirşanın depressiyadan əziyyət çəkdiyini qeyd edib.

Amerika mətbuatı Kennedi ailəsinin bu faciəsini əvvəlki fəlakətlərin davamı kimi qiymətləndirib. Belə ki, Con Kennedinin öldürülməsindən sonra prezident olmaq istəyən qardaşı Robert də 1968-ci ildə sui-qəsd nəticəsində dünyasını dəyişib. Bundan başqa, ailənin bir neçə üzvü də gənc yaşlarında qəza nəticəsində həlak olub. İyul ayında mərhum Prezident Con Kennedinin oğlu Con F. Kennedinin təyyarə qəzasında həlak olmasının ildönümü qeyd olunub.

# Cennifer Lopez Türkiyədə prezidentin iqamətgahında qalacaq



Dünyaca məşhur müğənni Cennifer Lopez "Its My Party" turnesi çərçivəsində 6 avqustda Antalyada konsert verəcək. Ulduz 2 xüsusi böyük təyyarə, 90 nəfərlik qrup və 10 TIR maşını ilə Antalyaya gələcək. Məlum olub ki, Lopez Ərdoğanın G20 zirvəsindəki güllə keçirməyən şüşə villasında qalacaq. Təşkilatçılar bildirib ki, müğənni uşaqları ilə birlikdə gəldiyi üçün ciddi hazırlıqlar gedir.

# Hacıqabulda piyadanı maşın vurub



Hacıqabulda piyadanın ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, hadisə rayonun Muğan qəsəbəsi ərazisində baş verib. "Hyundai X35" markalı minik avtomobili yolu keçən, Bakı şəhərində yaşayan Gürcüstan vətəndaşı Elman Kazımovu vurub. Müxtəlif dərəcəli ağır bədən xəsarəti alan piyada Şirvan Şəhər Mərkəzi Xəstəxanasına çatdırılıb. Həkimlərin səyinə baxmayaraq E.Kazımovu xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırma aparılır.


# səs

Son səhifə 3 avqust


# "Neftçi" avroliqada məğlubedilməzdir!



Bakının "Neftçi" futbol klubu UEFA Avropa Liqasının ikinci təsnifat mərhələsinin cavab oyunları çərçivəsində "Arsenal"ı (Tula, Rusiya) məğlub edib. "Bakcell Arena"da keçirilən görüşdə "Neftçi" rəqib qapısından üç cavabsız top keçirib. Bakı təmsilçisinin heyətində Rauf Əliyev, Dario Frederiko və Mamadu Mboj fərqləniblər.

Komandalar arasında Tulada keçirilən ilk oyunda "Neftçi" 1:0 hesabı ilə qalib gəlib. İki oyununun nəticəsinə görə, "Neftçi" UEFA Avropa Liqasının üçüncü təsnifat mərhələsinə yüksəlib. Qeyd edək ki, "Neftçi" birinci mərhələdə Moldovanın "Speranta" komandasını mübarizədən kənarlaşdırıb.

# "Neftçi": Siz bu il Bakıda uduzan yeganə "Arsenal" deyilsiniz



Neftçi PFK
@PFC_Neftchi
Читать

Well, don't you feel down, @pfc_arsenal. You're not the only Arsenal who has lost in Baku this year. Right, @Arsenal?

Удачной дороги и мягкой посадки, друзья

13:47 - 1 авг. 2019 г.

9 ретвитов 56 отметок «Нравится»

7 9 56

Bakının "Neftçi" klubu Avropa Liqasının ikinci təsnifat mərhələsinin cavab matçında qələbədən sonra (3:0) sosial şəbəkədə Tulanın "Arsenal" komandasına müraciət edib. Azərbaycan klubunun Twitter səhifəsində yerləşdirilmiş müraciətdə deyilir: "Tulanın "Arsenal" klubu, özünü əzilmiş kimi hissə etmə. Siz bu il Bakıda uduzan yeganə "Arsenal" deyilsiniz. Digəri Londonun "Arsenal" klubudur. Dostlar, sizə yaxşı yol və yumşaq eniş arzulayırıq". Xatırladaq ki, Londonun "Arsenal" klubu mayın 29-da Bakıda keçirilən Avropa Liqasının final matçında "Çelsi"yə 1:4 hesabı ilə məğlub olmuşdu. "Neftçi"nin bu qələbəsi komandanın növbəti mərhələyə vəsiqə almasına imkan verib. Komandamızın növbəti rəqibi İsrailin "Bney Yequda" klubu olacaq. İlk görüş avqustun 8-də Bakıda, cavab matçı isə həmin ayın 15-də Tel-Əvivdə keçiriləcək.

# Əmrə Mor rəsmən "Qalatasaray"da



İstanbulun "Qalatasaray" futbol klubu Əmrə Morun transferini rəsmən təsdiqləyib. 22 yaşlı yarımmüdafiəçi İspaniyanın "Selta Viqo" klubundan bir illik icarə əsasında "Qalatasaray"a keçib. İstanbul klubu buna görə İspaniya təmsilçisinə 600 min, futbolçuya isə 725 min avro ödəyib. Müqaviləyə əsasən, "Qalatasaray" bir ildən sonra 8 milyon avro ödəyərək 22 yaşlı hücumçunu transfer edə bilər. Əmrə Mor Türkiyə milli komandasında keçirdiyi 15 oyunda 1 qol vurub və 3 məhsuldar ötürmə edib.

# Bakıda futvolley üzrə beynəlxalq turnirə start verilib




Avqustun 2-də Bakıda futvolley üzrə beynəlxalq turnir başlayıb. Azərbaycan Futnet Federasiyasının (AFNF) təşkilatçılığı ilə keçirilən yarışda 13 ölkədən 20 komanda 4 qrupda mübarizə aparır. Belə ki, Braziliya, Azərbaycan-2, Moldova, Rusiya, Pakistan "A", İran, Azərbaycan-3, Almaniya, İtaliya, İsrail-İngiltərə "B", Avstriya, Azərbaycan-4, Pakistan-2, İran-2, Türkiyə "C", Azərbaycan, Moldova-2, Rusiya-2, Gürcüstan və Hindistan komandaları "D" qrupunda yarışırlar. Qrup oyunları dairəvi sistem üzrə keçirilir. Qruplarda ilk iki pillədə qərarlaşan komandalar dörddəbir finala vəsiqə qazanacaqlar. Dörddəbir final mərhələsinin oyunları Olimpiya sistemi üzrə təşkil olunacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600